


**Bu gün Dünya Azərbaycanlıları Şuşada Zəfər qurultayı keçirəcək!**
3

## Su ehtiyatlarının səmərəli istifadəsi Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək


2

Səs
№ 070 (6511) 22 aprel 2022-ci il. Qiymәti 60 qәpik

# Xankəndiyə aparan yeni Laçın yolu: AZ QALDI!

**Cari ilin may-iyun aylarında alternativ yolun açılışı gözlənilir**


4

## Prezidentin köməkçisi və DSX rəisi Ermənistanla sərhədə gedib

Aprelin 19-21-də Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər...


3

## Mixail Qusman: "Dünya azərbaycanlılarının V qurultayının Şuşada keçirilməsi böyük hadisədir"
9



## Koçaryan Xankəndiyə buraxılmadı - Ermənilər arasında qarşıdurma güclənir




7

## Məhkum, məhbus və məsum körpələr... Kimdir günahkar?

## Azərbaycan boksçusu Avropa çempionu oldu!


16

Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa birinciliyində final döyüşlərinə...



## TƏBİB açıqladı: Karantin qaydalarında yumşalmalar gözlənilir
5

Karantin qaydalarında yumşalmalar gözlənilir. SİA-nın məlumatına görə, bunu TƏBİB-in sədri vəzifəsini icra...




## "Artıq dünya parlamentlərində erməni "soyqırımı" ölü məsələyə çevrilib"
4

"Son 150 ildə ermənilərin həm dünya miqyasında, həm Ermənistan cəmiyyətinin uğur qazandığı, həm də rüsvayçılıqla...

# Su ehtiyatlarının səmərəli istifadəsi Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək

**_Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin, Şuşada inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub_**



**Prezident İlham Əliyev dünən Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.**

İşğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda, pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.







Daha sonra Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış olub.

İşğal dövründə on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olub. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarı buna bariz misaldır. Ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

İşğaldan azad olunan ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Su ehtiyatlarının düzgün idarə edilməsi və səmərəli istifadəsi isə Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək. Hazırda bərpası nəzərdə tutulan su anbarlarının istifadəyə verilməsi ilə bu məsələ həllini tapacaq.

İşğal dövründə Ermənistan məqsədli şəkildə su ehtiyatlarından təzyiq vasitəsi kimi istifadə edirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin strateji kursuna əsasən, bərpa prosesi zamanı sudan məqsədyönlü istifadə üçün infrastruktur imkanları təkmilləşdirilir. Bu, eyni zamanda, keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğun artırılması, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanıb. Sonra dövlətimizin başçısı Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış olub.

Qeyd edək ki, Qarabağın dirçəlişinə aparan Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır. Şuşaya çəkilən Zəfər yolunun cığırı qəhrəman əsgər və zabitlər tərəfindən açılıb. Hazırda bu yolda işlər davam etdirilir - məqsəd Şuşaya avtomobillə daha tez və rahat çatmaqdır. Cəmi 10 ay əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyil.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir.

Məlumat verildi ki, yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yolboyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yolnəqliyyat infrastrukturu işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Daha sonra Prezident İlham Əliyev Şuşa şəhərinə gəlib. Məlum olduğu kimi, aparılan kompleks işlər çərçivəsində Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir.

Dövlətimizin başçısı əvvəlcə Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə, daha sonra Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub. Məlumat verilib ki, hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaq.

## _Rəsmi sənədlər_

Prezident İlham Əliyev Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam verib.

***

Prezident İlham Əliyev B.Q.Kərimovun və Y.B.Musayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam verib. Sərəncamla Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə Bəxtiyar Qulu oğlu Kərimov və Yaşar Balabəy oğlu Musayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

# Bu gün Dünya Azərbaycanlıları Şuşada Zəfər qurultayı keçirəcək!




**Bu gün Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı başlayır. Zəfər qurultayı aprelin 22-23-də keçiriləcək.**

Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüşü olacaq. Zəfər Qurultayında bundan sonra diasporun fəaliyyətini müəyyənləşdirəcək mühüm qərarların qəbul ediləcəyi gözlənilir.

Tədbirdə 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edəcək. Qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, "Post-müharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzularında müzakirələr təşkil ediləcək. Qurultayla bağlı SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev bildirib ki, Ulu Öndər Heydər Əliyev prezident olduğu dövrdə dünya azərbaycanlılarının toplantıları və qurultayları keçirilirdi. Bu baxımdan həmin dövrdən əsası qoyulmuş bir ənənə var: "Daha sonra cənab Prezident İlham Əliyev də bu ənənəni yüksək səviyyədə davam etdirdi. Dünyanın hər yerində yaşayan azərbaycanlılar bir məqsədə, bir hədəfə, bir amala xidmət etmək və Azərbaycanın gücünə güc qatmaq üçün səfərbər olundular".

Onun sözlərinə görə, cənab İlham Əliyev prezident seçildiyi zaman bildirdi ki, mən bütün azərbaycanlıların prezidentiyəm: "Cənab Prezident fəaliyyəti zamanı da hər zaman sübut etdi ki, həqiqətən də dünyanın hər bir yerində Azərbaycan adına çalışan, dövlətimizə xidmət edən və özünü azərbaycanlı hesab edən hər kəsə yaxındır və onların hüquqlarının qorunması üçün dövlətin gücünü, potensialını səfərbər edir. Biz bunun dəfələrlə şahidi olduq və şükürlər olsun ki, 44 günlük Vətən müharibəsində Azərbaycan bu müharibənin qalib oldu, torpaqlarımızı işğaldan azad etdik və bütün sərhərlərimiz boyu Azərbaycan Silahlı Qüvvələri yerləşdi, möhkəmləndi".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bu gün Azərbaycan regionun ən güclü dövlətlərindəndir və ölkəmiz yeni reallıqlar yarada bilib: "Bu dəfə təşkil olunan Dünya Azərbaycanlılarının V Qurultayı əvvəlkilərdən çox fərqlənir. Çünki biz qalib ölkənin vətəndaşlarıyıq. Həm 44 günlük Vətən müharibəsi zamanı, həm də ondan öncəki bir çox proseslərdə dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan diasporunun nümayəndələri öz cəbhələrində savaşdılar, Azərbaycanın haqq səsini bütün dünyaya çatdırdılar və cənab Prezidentin siyasətini dəstəklədilər. Biz zəfərimizin ədalətli və layaqətli olduğunu dünyaya göstərirk. Dünya ictimaiyyəti də bunu qəbul edir. Biz bu gündən sonra daha güclü Azərbaycanın qurulması, formalaşması üçün səfərbər olmalıyıq. Düşünürəm ki, cənab Prezident bu qurultayda diaspor nümayəndələri qarşısında fərqli məqsədlər və missiya qoyacaq. Növbəti onilliklərdə bu strategiya əsasında öz fəaliyyətimizi quracağıq. Mən qurultaya öz işində uğurlar arzulayıram. Çox sevindirici haldır ki, dünya azərbaycanlıları artıq işğaldan azad olunmuş Azərbaycanın, türk dünyasının mədəniyyətinin paytaxtı olan Şuşada toplaşacaq və öz gözləri ilə həsrətlərində olduqları torpaqları görəcəklər".

"Dünya azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi tarixi bir hadisə olacaq. Şuşa 30 il bundan əvvəl may ayında düşmən qüvvələri tərəfindən işğal olunmuşdu. Nəhayət, 2020-ci ilin noyabrın 8-də Şuşa işğaldan azad edildi". Bu sözləri də SİA-ya açıqlamasında deputat Anar İsgəndərov deyib.

Onun sözlərinə görə, Şuşanın azad olunması dünya hərb tarixinə düşdü: "Dünyanın ən qəhrəman ordusuna malik olan Azərbaycan Ali Baş Komandanın rəhbərliyi altında Şuşanı heç kimin ağlına gəlməyən şəkildə geri qaytardı. Azərbaycan əsgəri Şuşa şəhəri uğrunda qan tökdü, amma yenə də düşməni darmadağın etdi. Bu qələbədən sonra düşmən heç vaxt Azərbaycan torpağına yaxın dura bilməyəcək. Düşməni müdafiə edən ədalətsiz dövlətlər də bu qələbədən sonra Azərbaycana qalib gəlməyəcəyini dərk etdi. Çünki haqq Azərbaycanın tərəfindədir. Ona görə də dünya azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi həm siyasi, həm hərbi, həm də mənəvi əhəmiyyətə malikdir".

Deputat sözlərinə davam edərək həmçinin qeyd edib ki, düşmən birmənalı olaraq artıq başa düşür ki, Azərbaycanın şərtlərini qəbul edərək müqaviləni imzalamalıdır: "Dağlıq Qarabağ deyilən qondarma qurum yoxdur. Artıq Azərbaycan bütün xarici qonaqlarını Bakıda deyil, Şuşada qəbul etmək, bu şəhərin bizim torpağımız olduğunu bəyan etmək istəyir. Şuşa Azərbaycana görkəmli şairlər, yazıçılar, bəstəkarlar bəxş edib. Hələ o zaman Ümummilli liderimiz Heydər Əliyev Şuşanın Azərbaycan şəhəri kimi təsdiq olunması üçün əlindən gələni etdi. Amma 90-cı illərin əvvəlində düşmən öz havadarlarının köməyi ilə bu şəhəri işğal edə bildi. Azərbaycan ordusu 2020-ci ildə bu işğalı sona yetirdi. V Qurultayın Şuşada keçirilməsi ilə bir daha bütün dünyaya Azərbaycan torpaqlarına heç kimin göz dikə bilməyəcəyini bəyan edəcəyik".

## Prezidentin köməkçisi və DSX rəisi Ermənistanla sərhədə gedib



Aprelin 19-21-də Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkov-nik Məhərrəm Əliyev və Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev DSX-nin Sərhəd



Qoşunlarının "Qubadlı" və "Qazax" əlahiddə sərhəd diviziyalarının hərbi hissə və bölmələrinə səfər ediblər. Bu barədə SİA-ya DSX-nin Mətbuat



Mərkəzindən məlumat verilib.

Səfər çərçivəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən sonra Ermənistan ilə dövlət sərhədində zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə Azərbaycan Respublikasının Prezi-denti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılmışdır.

Dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili istiqamətində həyata keçirilən fəaliyyətlər, o cümlədən sərhəd yollarının çəkilməsi, ərazidə hərəkətin təmin edilməsi üzrə tikinti-quruculuq işləri və təhlükəsizlik tədbirləri nəzərdən keçirilmiş, sərhəd-döyüş məntəqə-lərində xidmət aparan sərhədçilərlə görüşülmüş, hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraitləri ilə tanış olunmuşdur. Son bir il ərzində azad edilmiş ərazilərdə 19 yeni hərbi hissənin, 100-dən artıq sərhəd döyüş məntəqəsinin fəaliyyətə başlamasının böyük əhəmiyyəti vurğulanmışdır.

Əlahiddə sərhəd diviziyalarının rəhbər heyətlərinin iştirakı ilə xidməti müşavirələr keçirilmiş, vəzifəli şəxslərin xidməti ərazidə mövcud olan əməliyyat şəraiti və görülən tədbirlər haqqında məruzələri dinlənilmiş, hərbi hissə və bölmələrin döyüş hazırlığının daha da yük-səldilməsinin, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə zəruri tapşırıq və tövsiyələr verilmişdir. Səfər çərçivəsində səhra təlim mərkəzində DSX-nin taktiki təlimləri izlənilmişdir.

## Xəlil Kələntər: "Şuşada keçiriləcək Dünya Azərbaycanlılarının V Qurultayı diasporumuz qarşısında yeni vəzifələr müəyyənləşdirəcək"



Şuşada keçiriləcək Dünya Azərbaycanlılarının V Qurultayı bütün dünyaya səpələnmiş diasporumuzun qarşısında yeni vəzifələr müəyyənləşdirəcək. Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində Yaponiya-Azərbaycan Dostluq Mərkəzinin sədri, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü Xəlil Kələntər deyib. Bildirib ki, planetin dörd bir yanından azad Qarabağa gələn soydaşlarımız həm də Şuşadan bütün dünyaya birlik, ədalət, sülh mesajı verəcəklər. Azərbaycanın güclü, qətiyyətli, eyni zamanda, sülhsevər, humanist dövlət olduğunu, xalqımızın isə doğma Vətənini hədsiz məhəbbətlə sevdiyini nümayiş etdirəcək. "Şübhəsiz ki, bütün bunlar bizim hər birimizə əvəzsiz sevinc və qürur hissi yaşadır. Azərbaycan diasporunun nümayəndələri ilk dəfə azad Qarabağda, azad Şuşada toplaşacaq. Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa daha bir möhtəşəm tarixi hadisəyə ev sahibliyi edəcək", - deyə Yaponiyada yaşayan diaspor rəhbəri vurğulayıb.

Xəlil Kələntər xüsusi qeyd edib ki, son illər Azərbaycanın bütün sahələrdə əldə edilən böyük uğurlarının müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Prezident İlham Əliyevin müdrik rəhbərliyinin nəticəsi olaraq son illərdə Azərbaycan diasporu da çox böyük inkişaf yolu keçib. Dünyanın hər bir yerində güclü diasporumuz formalaşıb və Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində böyük işlər görülüb. Prezident İlham Əliyevin bütün beynəlxalq tribunalarda ölkəmizin milli maraqlarını, haqlı mövqeyini müdafiə etməsi, qətiyyətli bəyanatları, eyni zamanda, diasporumuz üçün bir yol xəritəsinə çevrilib.

Hazırda Azərbaycan diasporunun çox gücləndiyini əminliklə vurğulayan X.Kələntər diaspor təşkilatlarının ölkəmizin dövlət və milli maraqlarının xaricdə qorunmasında xüsusi rol oynadığını bildirib. O deyib: "Biz 44 günlük Vətən müharibəsi dövründə də bunun şahidi olduq. Xalqımız həm ölkə daxilində, həm də xaricdə bir yumruq kimi birləşdi, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Zəfərə öz töhfələrini verdi. Azərbaycan diaspor təşkilatları, eyni zamanda, erməni diasporu üzərində də qələbə qazandı. Yalan və saxta faktlar əsasında formalaşan erməni təbliğatı darmadağın edildi, erməni diasporunun əsl siması, iç üzü tanıdıldı".

X.Kələntər vurğulayıb ki, bu gün hər bir azərbaycanlı dünyanın istənilən yerində başıuca, alnıaçıq gəzir. Çünki bizə artıq məğlub kimi baxmırlar, biz qalib xalqıq. Biz Azərbaycan xalqının qəhrəmanlığını, qətiyyətini bütün dünyaya göstərmişik. Növbəti günlərdə dünya azərbaycanlılarının ürəyi Şuşada döyünəcək, qürurumuz göylərə ucalacaq. Prezident İlham Əliyevin daha da gücləndirdiyi Azərbaycan diasporu qələbələrimizi Şuşada qeyd edəcək.

ŞƏRH+AKTUAL

# Xankəndiyə aparan yeni Laçın yolu: AZ QALDI!

*Cari ilin may-iyun aylarında alternativ yolun açılışı gözlənilir*



Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərimizdə sürətli və yüksək keyfiyyətlərə əsaslanan bərpa-inşaat işləri aparılır və bu reallıq artıq Ermənistanda da qısqanclıq yaradır, üstəlik, revanşist qüvvələrin əl-qollarını, sözün əsl mənasında, bağlayır. Söz yox ki, güclü iqtisadiyyat və qüdrətli ordu reallığı da bu amilləri özündə kifayət qədər ehtiva etməkdədir. Düzdür, bu gün Ermənistandakı müəyyən və məlum isterik qüvvələr - istər müxalifət, istərsə də iqtidar təmsilçiləri hələ də özlərinə təskinliklər verir, olmayanı və bundan sonra heç vaxt olmayacaq məsələləri ”olan” kimi qələmə verməyə cəhdlər göstərirlər, amma reallıq tamamilə başqa tərəfləri, fərqli mənzərəni göstərir...

**Azərbaycanın apardığı işlər Ermənistanın imzaladığı kapitulyasiya sənədinə uyğun şəkildə həyata keçirilir**

Bu xüsusda, yeni Laçın yolunun sürətli tikintisi, hətta belə desək, vaxtından əvvəl istifadəyə verilməsi mümkünlüyü istər hələ də Qarabağda qalan cinayətkar-quldur rejiminin tör-töküntüləri, istərsə də Ermənistandakı hay-harayçıları əməlli-başlı çaş-baş vəziyyətinə salıb. Belə ki, əldə etdiyimiz məlumatlara görə, artıq cari ilin may-iyun aylarında alternativ yolun açılışı gözlənilir.

Yeri gəlmişkən, onu da xatırlada bilərik ki, bu əhəmiyyətli addımın reallizəsi məhz 10 noyabr anlaşmasında yer alıb və bu baxımdan, nə Rusiya, nə də Ermənistan sözügedən prosesə mane, yaxud müdaxilə edə bilmirlər. Daha dəqiq desək, Azərbaycanın apardığı işlər Ermənistanın imzaladığı kapitulyasiya sənədinə uyğun şəkildə, yeni əldə edilmiş razılaşmalar əsasında həyata keçirilir.

Erməni sakin: **”Elə bil Bakının yarısı burada işləyir, azərbaycanlılar çox sürətlə çalışırlar, yəqin 1 aya işləri tamamlayacaqlar”**

Ermənistandakı reaksiyalar da kifayət qədər maraq doğurur. Misal üçün, yeni Laçın yolunun inşasının yaxınlığında yerləşən kəndlərdən birinin sakini Sarkisyan təəccüblə deyib: ”Elə bil Bakının yarısı burada işləyir, azərbaycanlılar çox sürətlə çalışırlar, yəqin 1 aya işləri tamamlayacaqlar”.

Onu da qeyd etmək olar ki, bu gün Laçın dəhlizi adlandırılan yola alternativ yolun mühüm özəlliyi yalnız Laçın şəhərinin tam olaraq bizim nəzarətimizə keçməsi ilə deyil, həm də Ermənistanın ”Laçın koridoru” adlandırdıqları köhnə yoldakı bütün qanunsuz kommunikasiya xətlərinin qeyri-işlək vəziyyətə düşməsi ilə də seçilir. Məsələ ondadır ki, hazırkı Laçın dəhlizindən Xankəndiyə Ermənistandan qeyri-qanuni olaraq müxtəlif kommunikasiya xətləri uzanır - işıq, qaz, internet və s.

Yeni Laçın yolunda isə Ermənistana aid heç bir kommunikasiya xətləri mövcud olmayacaq və beləliklə, Xankəndi şəhərimizin bütün kommunikasiya təminat mexanizmləri məhz Azərbaycan tərəfindən təmin ediləcək. Hazırda isə yeni yolun Həkəri çayı üzərindən yeni körpüsü tikilir. Bütün bu reallıqlar isə bir daha sübut edir ki, artıq bu yol bizi Xankəndiyə doğru daha da yaxınlaşdırır və necə deyərlər, az qaldı!

***Rövşən RƏSULOV***



# Əhməd İsmayılov Bakı Slavyan Universitetində görüş keçirib

21 aprel tarixində Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılovun Bakı Slavyan Universitetinin (BSU) jurnalistika ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Medianın İnkişafı Agentliyinin əməkdaşları, BSU-nun Humanitar və sosial elmlər fakültəsinin dekanı Sevda Axundova, Jurnalistika kafedrasının müdiri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

BSU-nun Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə tələbələrin ölkədə həyata keçirilən media islahatlarının gedişi ilə tanış olması baxımından bu görüşün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan mətbuatının keçdiyi inkişaf yolundan, dövlətimizin medianın inkişafı istiqamətində atdığı addımlardan, dövrün tələblərinə uyğun olaraq aparılan islahatlardan geniş bəhs edib. Əhməd İsmayılov Azərbaycan mediasının ölkəmizdə və dünyada baş verən proseslərin cəmiyyətə daha dolğun şəkildə çatdırılması, cəmiyyətin informasiya tələbatının ödənilməsi istiqamətində göstərdiyi səylərdən, daim yeniliyə, təkmilləşməyə maraq göstərməsindən, müasir dövrün yaratdığı imkanlardan maksimum bəhrələnməsindən danışıb. O, ”Media haqqında” Azərbaycan Respublikası Qanunu bu sahədə hüquqi-normativ bazanın yaradılmasını və jurnalistlərin peşəkarlığının artırılmasını, digər mühüm məqamları özündə ehtiva etdiyini vurğulayıb. Görüşdə tələbələri maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# “Bu, erməni həyasızlığının son həddidir”

“Ermənilər hər il 24 aprel tarixini ”soyqırımı günü” kimi qeyd edir. Təəssüflər olsun ki, keçən il ABŞ prezidentinin dilindən bu fikri eşitdirə bildilər”. Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Kərimli deyib.

Onun sözlərinə görə, ermənilərin əsas məqsədi Türkiyə dövlətinə bu soyqırımı qəbul etdirməkdir: ”Bu, erməni həyasızlığının son həddidir. Ermənilərin bizə qarşı törətdiyi vəhşiliklər göz qabağındadır. Onlar dünyanın ən vəhşi hərəkətlərini bizim xalqımıza qarşı ediblər. Bildiyimiz kimi ermənilər Qərbin köməyilə Osmanlı dövlətinə qarşı hərəkətə başladılar. Onlara qarşı heç bir soyqırım hadisəsi olmayıb. Əksinə Ermənistanda türk qəbirləri ortaya çıxır. Erməni tərəfi həmişə öz vəhşiliyini digər dövlətlərin üzərinə atmağa çalışıblar. Buna görə də ”erməni soyqırımı” ifadəsi qəbuledilməzdir və biz bunu birmənalı şəkildə rədd edirik”.



***Arzu Qurbanzadə***

# “Artıq dünya parlamentlərində erməni ”soyqırımı” ölü məsələyə çevrilib”

“Son 150 ildə ermənilərin həm dünya miqyasında, həm Ermənistan cəmiyyətinin uğur qazandığı, həm də rüsvayçılıqla uğursuzluğa düçar olduğu məsələ məhz ermənilərin erməni genosidi ilə bağlıdır. Ona görə həm uğur, həm də uğursuzluq deyirəm ki, dünya erməni lobbisi və erməni diasporu 1915-ci ildə Türkiyədə baş vermiş müharibənin bəzi çalarlarını guya ermənilərin genosidi kimi gündəmə gətirə bildi”. Bu sözləri SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin Baş redaktoru, siyasi ekspert Aydın Quliyev bildirib.



Onun sözlərinə görə, hətta bunun bir sıra ölkələrin parlamentləri tərəfindən tanınmasına nail oldu. Bir çox ölkələrdə bununla bağlı qanun qəbul edilib. Hətta genosidin inkar olunmasına görə cəza nəzərdə tutan qanunlar mövcuddur. Bir sözlə, 1915-ci ildə iddia edilən həmin hadisələrin genosid kimi tanıdılması müəyyən bir dövr uğur qazanılan məsələ oldu. Ancaq təxminən 1988-1990-cı illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün açıq forma alması, həm də onunla nəticələndi ki, dünya erməni diasporunun və erməni lobbisinin heyətləri yavaş-yavaş açılmağa başladı. Eləcə də ermənilər genosidi dünyada bir fakt kimi qəbul etdirmək siyasətinə başladı.

Vətən müharibəsində Azərbaycanın əldə etdiyi total qələbə dünya erməniçiliyinin bütün istiqamətlərdə, o cümlədən bu genosid kimi iflasa uğramasının əsasını qoydu. Vətən müharibəsində Azərbaycanın apardığı total müharibənin həm hərbi, həm siyasi, həm də informasiya müstəvəsində onları məğlub etməsi, ermənilərin əvvəlki iddialarının da məhv olması ilə nəticələndi. Dünya gördü ki, ermənilər bir çox sahələrdə olduğu kimi, məhz genosid məsələsində də düzgün deyildilər. Vətən müharibəsindən sonra elmi araşdırma, siyasi mərkəzlər, 2015-ci il hadisələrinin araşdırılması üçün Türkiyədə və Ermənistanda arxivlərin açılması məsələsinə daha ciddi yanaşmağa başladılar. 2002-2003-cü ildə Türkiyə rəhbərliyi bu məsələni gündəmə gətirdikdə, dünya mərkəzləri buna o qədər də həvəslə yanaşmamışdılar. Ancaq Vətən müharibəsində Azərbaycanın hərtərəfli və tutarlı qələbəsindən sonra dünyada hər kəs Ermənistanın genosid məsələsində də dünya miqyaslı yalan uydura biləcəyinin fərqinə vardı və bu məsələyə dair ciddi yanaşmağa başladılar.

Son bir neçə ildə dünyada erməni genosidinin olduğunu qəbul edən və tanıyan bir dənə belə olsun parlament qərarı yoxdur. Artıq dünya parlamentlərində bu proses irəliləmir, ölü bir məsələyə çevrilib. Heç gələcəkdə də dünyanın hər hansı bir parlamentinin erməni genosidini tanıması məsələsi görünmür. Amma bunun əvəzində Xocalı genosidinin tanınması dinamik prosedura çevrilib. Zəif də olsa dünya parlamentlərinin bu hadisəni genosid kimi tanıması faktları artmaqda davam edir”.

***Səbinə Hüseynli***

# Maska tələbi ləğv edilməlidir? CƏMİYYƏTİN BAXIŞI

**Artıq bir çox ölkələrdə karantin qaydaları yumşaldılır və məhdudiyyətlər aradan qaldırılır. Mart ayının ortalarından etibarən Avropanın bəzi ölkələrində maska və peyvənd sertifikatının tələb olunması tamamilə aradan qaldırılır və bunlar tələb olunmayacaq. Hazırkı pandemiya şəraitini nəzərə alsaq, Azərbaycanda maska tələbi aradan qaldırılmalıdırmı?**

SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışıb. Bəs, gəlin görək şəhər sakinləri ölkəmizdə maska tələbinin aradan qaldırılması ilə bağlı nə düşünür?

**Şəhər sakini Şəhanə Zeynalova:** "Düşünürəm ki, maska tələbi aradan qaldırılmalıdır. Çünki yoluxma sayı gündən-günə azalmaqdadır. Demək



olar ki, koronavirusa yoluxanların böyük əksəriyyəti sağalıb. Bu səbəbdən düşünürəm ki, maska tələbi aradan qaldırılmalıdır".

**Şəhər sakini Yavər Mirzəliyev:** "Əgər, ölkədə, dünya pandemiya şəraiti davam edirsə, yəni hələ də koro-



navirus mövcuddursa, maska tələbi yığışdırılmamalıdır. Çünki bu virus hələ tam bitməyib. Heç kim bilə bilməz ki, təsadüfən yanından keçən insan sağlamdır, ya da virusa yoluxub. Elə bu səbəbdən düşünürəm ki, maska tələbi yığışdırılmamalıdır".

**Şəhər sakini Sabina Babayeva:** "Düşünürəm ki, maska tələbi aradan qalxmalıdır. Amma qapalı məkanlarda



maska istifadə edilməsi tələbi yığışdırılmamalıdır. Çünki koronavirusa yoluxanların sayı qismən azalsa da, hələ də virus bitməyib. Düşünürəm ki, maska tələbi tamamilə aradan qalxsa yenidən əvvəlki vəziyyətə düşə bilərik. Bu səbəbdən düşünürəm ki, maska tələbi aradan qalxmamalıdır".

**Şəhər sakini Tural Hüsyenov:** "Düşünürəm ki, artıq maska tələbi ara-



dan qaldırılmalıdır. Artıq 2 ildən çoxdur ki, pandemiya bütün dünyanı cənginə alıb. Yavaş-yavaş normal həyata geri qayıdırıq. Bu səbəbdən məncə maska tələbi də yığışdırılmalıdır".

**Şəhər sakini Lalə Mehdiyeva:** "Məncə, maska tələbi aradan qaldırılmalıdır. Gündəlik koronavirusa yoluxma sayı və ya koronavirusdan sağa-



lanların sayı göz qabağındandır. Yoluxma sayı gündən-günə daha da azalmaqdadır. Bu səbəbdən düşünürəm ki, maska tələbi də yığışdırılsa, daha yaxşı olar".

**Şəhər sakini İradə Məlikova:** "Maskanın tamamilə götürülməsinin tərəfdarıyam. Çünki bəzi hallarda haqsız yerə insanlar cərimələnir.



Onlardan biri də mənəm. Küçədə maska taxmaq tələbi qüvvədə olan vaxt səhhətimlə bağlı xəstəxanaya gedərkən xəstəxananın girişinə 6 metr qalmış maskanı çıxartdım və məni cərimələdilər. Bu səbəbdən düşünürəm ki, maska tələbi aradan qaldırılmalıdır".

**Şəhər sakini Telman Quliyev:** "Fikrimcə, maska tələbi aradan qaldırılmalıdır. Çünki səhhətimlə əlaqədar maska taxanda nəfəs ala bilmirəm. Maka taxmaq səhhətimi daha da pisləşdirir. Bu səbəbdən maska tələbi tamamilə yığışdırılmalıdır".

***Arzu Qurbanzadə***

## "Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ulu Öndərin tarixi xidmətlərindəndir"

"Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə siyasi fəaliyyətinin təməlini milli-mənəvi dəyərlərimiz təşkil edirdi. Sovet hakimiyyəti illərində bu nə qədər çətin və böyük hünər tələb etsə də, Ulu Öndərimiz bütün bu işlərin öhdəsindən ləyaqətlə gəlirdi. Azərbaycan dili məsələsi də daim onun diqqət mərkəzində olub. Ana dilinin qorunması, inkişaf etdirilməsi, mütəmadi olaraq zənginləşdirilməsi, bu sahə üzrə mütəxəssislərin hazırlanmasına xüsusi qayğı ilə yanaşırdı. Bu istiqamətdə va-




cib və cəsarətli qərarlar qəbul edirdi. 1970-ci illərin ortalarından SSRİ respublikalarının ictimai-siyasi həyatında dil məsələsi geniş müzakirələrə səbəb olmuşdu. Belə ki, ittifaqda milli dillərin sıxışdırılması prosesi getdikcə güclənirdi, hətta respublika rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdən ehtiyat edirdilər. Həmin vaxt Heydər Əliyev heç nədən çəkinməyərək dil məsələsində öz mövqeyini qətiyyətlə ortaya qoydu. Məhz onun bilavasitə təşəbbüsü ilə 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verildi. Bunu mən şəxsən Ulu Öndərin xalqımız, Vətənimiz, dövlətimiz qarşısında ən böyük tarixi xidmətlərindən biri hesab edirəm. O, bu addımı ilə milli varlığımızın təminatçısı olan dilimizi məharətlə qorumuş oldu". Bu SİA-ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, Ulu Öndərin bu qədər ana dilimizə dəyər verməsi, onun qorunması üçün bütün çətinliklərə baxmayaraq, mübarizə aparması Vətənmizə olan sonsuz sevgisindən irəli gəlirdi: "Bir sözlə, Azərbaycan dilinin qorunması və inkişafı üçün nə mümkün idisə onu da edirdi. Azərbaycanda dilçi alimlərə yüksək hörmət və qayğının göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı. Yəqin ki, 1995-ci ildə Azərbaycan Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı irəli sürülən müxtəlif təklifləri xatırlayırsınız. Təbii ki, böyük əksəriyyət ana dilimizin Azərbaycan dili adlandırılmasını dəstəkləyirdi. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində dövlət dilinin Azərbaycan dili olması ana dilimizin inkişafı və qorunmasını daha da möhkəmləndirdi".

***Banuçiçək Hüseynli***

## TƏBİB açıqladı: Karantin qaydalarında yumşalmalar gözlənilir

Karantin qaydalarında yumşalmalar gözlənilir. SİA-nın məlumatına görə, bunu TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanov



jurnalistlərin maska tələbinin ləğvi ilə bağlı sualına cavabında bildirib. O qeyd edib ki, bununla bağlı tarix dəqiq deyil. "Bu qərarın may ayının birinə, yoxsa yarım saata olacağını isə dəqiq deyə bilmərik" - deyə V.Qurbanov əlavə edib.

## "Əsas məqsəd vətəndaşların daha yaxşı yaşamasının təmin edilməsidir"

Azərbaycan Prezidentinin "1941-1945-ci illərdə İkinci dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı dövlətimizin sosial yönümlü siyasətinin daha bir nümunəsi kimi qiymətləndirilə bilər. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov deyib. O, bildirib ki, Azərbaycan dövləti vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirir. Əsas məqsəd vətəndaşların daha yaxşı yaşamasının təmin edilməsinə nail olmaqdır.



S.Məmmədov Sərəncamın 4500-ə yaxın şəxsi əhatə edəcəyini xatırladaraq qeyd edib ki, 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan bu məqsədlə 3,5 milyon manat ayrılıb: "Bu sərəncamın əhəmiyyəti həm də ondan ibarətdir ki, Azərbaycan dövlətinin öz tarixinə nə qədər hörmətlə yanaşdığını nümayiş etdirir. İkinci dünya müharibəsində yüzminlərlə azərbaycanlı həlak olub. Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycan həm iqtisadi imkanları, təbii sərvətləri ilə, həm də insan resursları ilə çox mühüm rol oynayıb. Bu, bizim tariximizin mühüm bir hissəsidir. Bu baxımdan, hesab edirəm ki, ikinci dünya müharibəsi iştirakçılarına göstərilən diqqət və qayğı, mahiyyət etibarilə həm də bizim öz tariximizə ehtiramımızın ifadəsidir".

Deputat vurğulayıb ki, son illərdə sosial sahədə aparılan çoxsaylı islahatlar sosial xidmətlərin şəffaflığının və əlçatanlığının təmin olunmasına istiqamətlənib: "Eyni zamanda, əhalinin sosial müdafiəsinin daha effektiv mexanizmlərinin yaradılması istiqamətində vacib tədbirlər həyata keçirilib. Müxtəlif kateqoriyalardan olan vətəndaşların sosial durumunun yaxşılaşdırılması məqsədinə xidmət edən qanunvericilik aktları qəbul olunub, fərman və sərəncamlar imzalanıb. Bütün bunlar vətəndaşların sosial rifahına xidmət etməklə yanaşı, cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadın dərinləşməsinə xidmət edir. Düşünürəm ki, atılan hər bir addımın arxasında vətəndaşların mənafeləri dayanır".

***Abutel İlhamqızı***

ANALİTİK+AKTUAL

# Dünyada praktiki olaraq hər şeyin qiyməti sürətlə artır!

## Analitiklərin proqnozları və mövcud qiymətlər dünya ictimaiyyətində ciddi narahatlıq doğurur

**Xam məhsullar üzrə qiymətlərinin artması fonundakı dəyərləndirmələrin təyin edilməsində yaranmış çətinliklər dünya iqtisadiyyatının vəziyyətində narahatlıq doğurur. SİA xəbər verir ki, bu barədə Anadolu agentliyinin iqtisadi şərhində bildirilir. Xüsusilə, ABŞ-ın Federal rezerv sistemində (FRS) Mərkəzi bankların sərt siyasət yürütməsi, Ukraynadakı vəziyyətin mümkün kəskinləşməsi ehtimalının yüksək olması və Çində COVİD-19-a yoluxma hallarının artmasının müşahidə edilməsi xammal bazarına təsirlərini göstərməyə davam edir. Elə ötən həftə də xammal bazarlarında kəskin qiymət artımları müşahidə edilib.**

İnflyasiya həddinin 8,5% səviyyəsi 1981-ci ildən bəri rekord həddə çatıb və belə dinamiklik ABŞ-ın Fedral rezerv sisteminin mövqeyində sərtləşdirmələr tətbiq




etməsi üçün şərait yaradır. O cümlədən, Rusiyanın prezidenti Vladimir Putinin Ukrayna tərəfinin İstanbulda əldə edilmiş razılaşmalardan kənarlaşması ilə bağlı bəyanatından sonra xammal bazarı qeyri-sabit vəziyyətdə qalmaqda davam edir.

Geosiyasi risklər xammal qiymətlərinin artmasına şərait yaratsa da, dünyanın aparıcı mərkəzi banklarının pul siyasəti ilə bağlı açıqlamaları qiymətləri müəyyən dərəcədə aşağı salmağa müvəffəq olublar. Analitiklər qeyd edirlər ki, may toplantısında uçot dərəcəsinin 50 baza bəndi artırılmasını demək olar ki, qaçılmaz hadisə kimi qiymətləndirən FRS rəhbərliyi sərt proqnozlar verməkdə davam edirlər.

### Qızılın bir unsiyasının qiyməti 1970 ABŞ dollarını aşıb

Ötən həftə qızıl 1,3%, gümüş 3,5%, platin 1,7%, palladium 2,2% ucuzlaşıb. Keçən həftə təhlükəsiz aktivlərə tələbat və inflyasiyanın sürətlənməsi nəticəsində dünya bazarında qızılın qiyməti bir unsiya üçün 1980 dollardan yuxarı qalxaraq aylıq




maksimuma yaxınlaşıb. Qərb ölkələrinin yeni sanksiyaları elan etməsindən sonra isə palladiuma tələbat artıb.




Beləliklə, palladium qiymətləri tədarük problemi ilə bağlı narahatlıqlar fonunda kəskin yüksəlməyə başlayıb. Mis 0,2%, alüminium 2,6% və nikel 2,9% ucuzlaşıb, qurğuşun 1,1% və sink isə 4,7% bahalaşıb. Analitiklər qeyd edirlər ki, mart ayında COVID-19-a yoluxma hallarının artması və növbəti məhdudiyyətlərin tətbiqi fonunda Çin öz mallarının, xüsusilə metallarının ixracını azaldıb. Sinkin qiymətinin artması isə Çində tədürükün azalmasından doğan narahatlıqdan və Avropada enerji daşıyıcılarındakı qiymətlərin artması səbəbindən olub.

### Qazın qiyməti son 13 ildə maksimuma yüksəlib

Ötən həftə ABŞ-da enerji qiymətlərinin də kəskin artması qeydə alınıb. Nyu-Yorkda ticarətin bağlanğıcı zamanı fyuçerslərin dəyəri 2008-ci ilin noyabrından bəri maksimum yenilənərək 16,3% artıb və 7,346



dollara çatıb. Həmçinin, qiymətlərin kəskin artmasına ötən həftə hasilatın azalması, eləcə də ABŞ-ın təbii qaz ehtiyatlarının gözləniləndən çox azalması səbəb olub.

Qlobal neft bazarında artan narahatlıqlar fonunda Brent markalı neft 8,6% bahalaşıb. Aİ xarici işlər nazirləri aprelin 11-də Lüksemburqda Rusiya neft və qazına qarşı məhdudlaşdırıcı tədbirləri müzakirə ediblər, lakin heç bir qərar verilməyib. Bu barədə isə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell bildirib.

Digər tərəfdən, qiymət artımına OPEK-in baş katibi Məhəmməd Barkindonun açıqlaması da səbəb olub. O bildirib ki, Rusiyaya qarşı sanksiyalar dünyada neft tədarükünün ciddi şəkildə pozulmasına şərait yaradır və Rusiyanın bazara təqdim etdiyi həcmdən başqa alternativ demək olar ki, yoxdur. Eyni zamanda, Rusiyanın Ukrayna ilə danışıqların dalana dirənməsi ilə bağlı iddiaları da tədarüklə bağlı narahatlıqları artırıb.

### Kənd təsərrüfatı məhsulları



Ötən həftənin sonlarında Nyu-York Ticarət Birjasında xam pambıq üçün iyul müqavilələri 0,4% artaraq bir funt üçün 1,4478 dollara çatıb, Çikaqo əmtəə birjasında isə qarğıdalı 2012-ci ilin sentyabrından bəri ən yüksək həddə çatıb - 7,86 dollar, yəni 3%.

Bu gün isə qarğıdalının qiyməti artıq 7,90 dollara çatıb. Pambığın qiymətinin artması ABŞ-ın həftəlik pambıq ixracının artması nəticəsində tələbatın artacağı proqnozlaşdırılması ilə əlaqədardır. Ukraynada əkin və məhsul yığımı ilə bağlı çətinliklər, eləcə də ABŞ-da soyuq havanın əkin prosesinə təsir edəcəyi ilə bağlı təlaşlar qarğıdalı qiymətlərinə öz ağır təsirlərini göstərib. Analitiklər vurğulayırlar ki, hava şəraitinin yaratdığı problemlər davam edərsə, qarğıdalının qiyməti buşel üçün hətta 8 dolları da keçə bilər!

Çikaqo əmtəə birjasında buğdanın qiyməti 4,3%, düyünün qiyməti 2,6%, soyanın qiyməti isə 1,5% bahalaşıb. Nyu-Yorkun ICE Futures Exchange birjasında qəhvə fyuçerslərinin qiyməti 3,6%, şəkərin qiyməti 0,9%, kakaonun qiyməti 2% ucuzlaşıb. Mütəxəssislər qəhvə istehsalçılarının ilkin olaraq bu ilin çətin keçəcəyini proqnozlaşdırdıqlarını, qəhvə qiymətlərindəki enişin isə tələblə bağlı ehtiyat etmələrindən qaynaqlandığını bildirirlər.

Türkiyənin fyuçers və xammal üzrə tanınmış eksperti Zəfər Ergesen Ukraynadakı vəziyyətin və yüksək neft qiymətlərinin qarğıdalı qiymətlərinin artmasına səbəb olduğunu bildirib. Onun fikrincə, ABŞ-da isti və quru hava, eyni zamanda, pambıq tədarükü ilə bağlı narahatlıqlar yaradır. "Neftin qiyməti yüksək olduğundan pambığa tələbatın artacağı ilə bağlı gözləntilər var idi ki, bu da alternativ məhsulların bahalaşmasına səbəb olub. Uzaq Şərqdə - düyü istehsalında lider regionda müəssisələrin bağlanması ilə düyü qiymətləri artıb. Eyni zamanda, münaqişə şəkər və qəhvə bazarlarına da mənfi təsir göstərib", deyə türkiyəli ekspert qeyri-sabit proqnozlarını önə sürüb.

***Rövşən RƏSULOV***

# Məhkum, məhbus və məsum körpələr...




Bəli, həyatımızda məhkumluqda doğulan, məhbusluğa gözlərini açan, lakin dünyaya gələn bütün körpələr kimi məsum olan uşaqlar var. Nədir onların günahı? Nə üçün başqa uşaqlardan fərqli olaraq məhkumluqda anadan doğulurlar? Nə üçün gözlərini məhbusluğa açırlar? Bu, bir alın yazısıdırmı? Yoxsa həm özünün, həm də övladının alın yazısını etdiyi cinayətlərlə dəyişdirən qadınlarımızın bağışlanmaz səhvidir? Bu barədə söhbət açmağa həqiqətən böyük ehtiyac var.

## Qadın və cinayət

Qadın və cinayət. Bir-birinin əksi olan bu məfhumlar yazıqlar olsun ki, çox zaman bir araya gəlir. Qadın cinayət törədir. Lakin bunu necə bacarır, necə həyata keçirir, bax maraqlı olanı da budur. Bizim mentalitetə yad olan qadın və cinayət məfhumlarına rast gələndə təbii ki, düşünməyə, araşdırmağa ehtiyac duyursan. Necə olur ki, nənələrimizin, analarımızın gecəli-gündüzlü söhbətləri, tövsiyələri, tərbiyələri qarşılığında biz cinayətkar oluruq. Necə olur ki, anamızın o müqəddəs südü ilə iliklərimizə işləyən qadınlıq zərafətini, ucalığını, incəliyini, munisliyini zora, gücə, əliəyriliyə, dələduzluğa, möhtəkirliyə çevirib cinayət törədir, həbsxana qapılarını üzümüzə açırıq? Necə olur ki, analarımızın o dəruni söhbətlərini dinlədikcə ailə, ana olmaq, körpəmizi sevə-sevə böyütmək kimi qurduğumuz ülvi xəyalları bir səhvlə məhv edirik... Dəyərmi görəsən hansısa dünya malı, yaxşı geyinmək, yaxşı qidalanmaq, yaxşı evlərdə yaşamaq, qonşudan geri qalmamaq xatirinə bu munis hisslərdən məhrum olmağa? Dəyərmi? Biz bu əməllərlə nələri itiririk, bax bunun fərqində olan varmı bu qadınlar arasında? Yəni bir cinayəti törədib həbsxana divarları arasında bir neçə il yaşadıqdan sonra real həyata necə qayıdırsan? Sən yenədəmi o sənsən? Bax bu sual o qədər maraqlı gəlir ki, insana...

## Biz tək özümüzçün yaşamırıq

Zamanla belə tərbiyə almışıq ki, biz tək özümüz üçün yaşamırıq və yaşamamalıyıq da. İstər cəmiyyətimizin kişi, istərsə də qadınları olsun, qulaqlarımıza hakim kəsilən söz o olub ki, elə yaşamalısan ki, səninlə heç kim utanmasın. Yəni, ilk növbədə, bağçada, məktəbdə, məhəllədə, sonra universitet, iş həyatında, daha sonra ailədə, ümumilikdə cəmiyyətdə özünü elə aparmalı, elə hərəkət etməlisən ki, utandırıcı olmayasan. Bəli, bizim tərbiyəmizin bünövrəsində bu amillər dayanıb həmişə. Səhv hərəkətlərimiz qınaq olunub, valideynlərimizin, müəllimlərimizin, qonşularımızın etirazına, tənbehinə çevrilib. Beləliklə də xarakterimizə doğru olmaq, düzgün yaşamaq, düz yolla getmək kimi keyfiyyətlər sirayət edib. Hələ xüsusilə qızların tərbiyəsi Azərbaycan ailəsində bir başqa xətt təşkil edib həmişə. Onlara ismət, abır-həya, utancaqlıq aşılanıb. Onlara böyüyün-kiçiyin yerini bilmək, həddini aşmamaq, atanın, qardaşın, həyat yoldaşının yolunu gözləmək, hörmətini saxlamaq, qulluğunda durmaq kimi ailə dəyərlərimizi özündə ehtiva edən hisslər aşılanıb. Ən əsası isə qızlarımız ailələrimizdə ana olmağa hazırlaşdırılıb. Onlara ana olmağın sirləri açıqlanıb. Bu şərəfli adın ülviliyi, onun böyüklüyü, eyni zamanda çətinliyi öyrədilib. Bir sözlə, bizə ailələrimizdə "sən tək özün üçün yaşamırsan, sən sabah bir ailənin, bir cəmiyyətin fərdi olacaqsan" deyiblər. Elə yaşa ki, hərəkətindən heç kim utanmasın, söyləyiblər...

## Məhkum və məsum uşaqların monoloqu

Ay ana, bətnində mən ola-ola cinayət törətdin. Məni də özünə yoldaş etdin. İkimiz bir arada törətdik o cinayəti. Çünki mən sənin canından ayrılmamışdım, dünyaya gəlməmişdim. Mən doğulduqdan sonra ayrıca şəxsiyyətə çevriləcəkdim, hüquqlarım olacaqdı. İndi tək sənə məxsusam. Ana, sənin həbsxanaya düşməyinlə, məhkum olunmağınla tək özün deyil, bətnindəki mən də məhkum oldum. Mən də sənin kimi məhbusam. Baxmayaraq ki, mən məsum, günahsızam, lakin məni dünyaya gətirəcək varlığın-sənin günahlarının quluyam. Məni dünyaya gətirəcək sənin tək özün üçün yaşamadığını dərk etməməyinin əzabını çəkirəm.

Məni nə üçün buralara gətirib çıxarmısan, ay ana? Mən məhkum ananın övladı olmaq istəmirəm. İstəməzdim ki, mənim anam oğurluq, dələduzluq etsin. Narkotik, spirtli içki qəbul edən, onu satan olsun. Axı bu, sabah mənim kimi yüzlərlə körpənin ölümü, sağlamlıq imkanları məhdud şəkildə doğulması deməkdir. Ay ana, ya məni seçərdin, ya da o yolu. Nə üçün məni də özünə yoldaş etdin. Mən nə üçün həbsxanadakı qadının bətnində doğum günümü gözləməliydim. Mən nə üçün digər anaların bətnindəki uşaqlartək parklarda, xiyabanlarda, açıq, təmiz havada gəzməməliydim. Bilirsən ürəyim nələr istəyir? Sənin ən ləziz yeməkləri yeməni, qanınla qanıma ötürməni istəyir. Mən nə üçün həbsxanada bişirilən eyni yeməklərlə hər gün qidalanmalıyam?

Mən öz evimizdən doğum evinə getmək istəyirdim, həbsxanadan yox. Atamın xəstəxana qarşısında bizi gözləməsini istəyirdim, həbsxana işçilərini başım üzərində görmək istəmirdim. Xəstəxanadan öz evimizə getmək istəyirdim, həbsxanaya yox. Mənimlə bərabər xəstəxanadan çıxan uşaqları gördünmü, ana? Ana-atalarını da gördünmü? Mənim onlardan fərqim nədir? Nə üçün onlarla elə oradaca yollarımız ayrıldı?

Ay ana, mən süd istəyirəm. O südü ki, təmiz, saf ola. İçində nə narkotik, nə spirt olmaya. O südü istəyirəm ki, tərkibi minerallarla deyil, mənəviyyatla zəngin ola. Oğurluq edən əllərdən, dələduzluq edən bədəndən, başqasının ailəsini dağıdan, haqqını yeyən, ömrünü yarımçıq qoyan, mənim kimi körpələri gözüyaşlı, ata-anasız edən ruhdan süzülən südü istəmirəm. Mən qoynundan çiçək ətri gələn ananın qoxusunu ciyərlərimə çəkmək istəyirəm. Qan qoxusunu, çirkab qoxusunu deyil. Mən dilinə yalan, riyakarlıq gəlməyən ananın laylalarını dinləmək istəyirəm, kimlərisə yalanları ilə aldadan, yoldan çıxaran ananın deyil.

Kaş ki, dilim olardı, kaş ki, gücüm çatardı, nə südünü əmərdim, nə qoxunu alardım, nə də səninlə burada bir saniyə qalardım. Mən bu qədər zülmə tabeyəmmi? Elə bilirsən ki, bununla hər şey bitəcək? Günahlarına görə cəzanı alıb həyata əvvəlki kimi qayıda biləcəksən? Bəlkə də sən qayıdacaqsan, bəs mən? Mənə bağçada, məktəbdə, məhəllədə məhkumun övladı deməyəcəklərmi? Sənin bir səhvin mənim ömürlük cəzam, başıaşağılığım, dili qısalığım olmayacaqmı? Kaş ki heç doğulmazdım, kaş ki sənin övladın olmazdım...

## Kimdir günahkar?

Nədir o körpələrin günahı? Onlar nə üçün məhkim olmalıdırlar? Nə üçün məhbus həyatı yaşamalıdırlar, nə üçün məhbus qadının dünyaya gətirəcəyi varlığı olmalıdırlar? Heç qadınlarımız bu barədə düşünürlərmi? Düşünürlərmi ki, mən hamiləyəm, bir neçə aya uşaq dünyaya gətirəcəyəm. Və yaxud da irəlidə ailə həyatı qurub, ailə, uşaq sahibi olacağam. Düşünürlərmi? Düşüncələri cinayətə meyillənəndə, əlləri oğurluğa uzananda, dələduzluq fikirlərinə hakim kəsiləndə, ayaqları onları narkotik alverinə-kimlərinsə ölümünə fərman verməyə aparanda qadın olduqlarını fikirləşirlərmi?

Qadın ürəyi həssas olur, o necə adam öldürə bilir? Qadın zərif məxluqdur, o necə risqlərə gedib oğurluq edə bilir? Qadın özünə necə yaraşdırır ki, övladlarına tərbiyə verəcək dilindən dələduzluq etməsi üçün yalanlar çıxır? Onu bütün bunlara vadar edən nədir? Yuxarıda buna cavab tapmağa çalışmışıq. Əlbəttə ki, bu sualın cavabı o qədər əsassız amillərə bağlıdır ki, dərindən düşünən qadın özünü və gələcəyini utanca çevirəcəyi övladını o amillərdən asılı etməz. Onu cinayət etməyə meyilləndirən hissləri içində boğa, o hisslərlə mübarizə apara bilər.

Qadın heç də zəif məxluq deyil, o, yeri gələndə kişidən gə güclüdür. Həm də bu güc tək fiziki deyil, həm də mənəvidir. Qadın analıq hisslərinə, övladına o qədər bağlıdır ki... Heç olmasa bu iki gözəl hissin xatirinə cinayət törətməyin, əziz qadınlar.

## Kişilər, sözüm sizədir

Qadınların cinayət törətməsində özlərindən çox, kişilər günahkardırlar. Əgər bu gün qadın cinayətindən danışırıqsa, bu məsələyə toxunmamağımız yanlış olar. Qadınları cinayət etməyə çox halda kişilər sövq edir, bu, faktdır. Onların qadınlığından-diqqət çəkmələrindən, geyimlərinin uyğunluğundan, dillərinin şirinliyindən yetərincə istifadə edirlər. Qadınları öz iyrənc əməllərinə alət edirlər. Bəzən isə kişilərin özləri qadınlara xəyanətləri-aldatmaları, yalan danışmaları, artıq-əskik hərəkətləri ilə onların cinayət törətməsinə səbəb olurlar.

Kişilər, sözüm sizədir. Belə etməyin. Bəzən sizi sevən, əsiriniz olan, bəzənsə ehtiyacı olan, övladının bir günlük çörəyi üçün sizə ümid edən qadınlardan bu məqsədlə istifadə etməyin. Axı sizləri də bir qadın dünyaya gətirib. Evlərinizdə həyat yoldaşınız var, qızlarınız böyüyür. Onları düşünün, ətrafınızdakı bütün qadınlara onlara baxdığınız gözlə baxın. Əslində kişilər qadınların qoruyucusudur. Qadınları qoruyun. Onları öz alətinizə çevirmək istəyəndə analığını düşünün. Gözü yolda, həyatda olan övladlarını fikirləşin. Bəlkə o qadın bir səhv yoldadır, onu bu yoldan qaytarın. Ona yeni bir həyat verin. Bu, həm sizin cəmiyyətimzə, milli mentalitetimizə töhfəniz, həm də Allah qarşısında dəyəriniz olar.

## Kaş ki, cinayət olmasın

Statistik göstəricilər qadın cinayəti ilə bağlı nə deyir?

Bəzən baş verən hadisələrin hər birinə "alın yazısıdır" deyib özümüzə təsəlli verməyə çalışırıq. Lakin başımıza gələn hadisələrin hamısı alın yazısıdırmı? Bir qadının cinayət törətməsi onun alın yazısı deyil. Həyat yolunu düzgün seçməməsidir. Sosial şəbəkələrdə məhkum qadınların videoları-söhbətləri, etirafları ilə qarşılaşıram. Aşağıdakı rəyləri oxuyuram. Görürəm ki, etdiyi cinayətə görə onu günahsız saymayanlar, gunahkar sayanları hələ qınayanlar da var. Məsələn, dünən insanlardan külli miqdarda pul alıb onların işə düzəlməsinə "köməklik" göstərən, sonda işin üstü açılanda cinayət məsuliyyətinə cəlb edilən bir qadının videosuna baxırdım. Günahlarını boynuna alırdı, peşmanlığını vurğulayırdı. Lakin rəylərdə onu heç də günahkar hesab etməyən qadınlarımız da var idi. Kimisi "uşaqları üçün edib" deyirdi. Kimisi qadını atan həyat yoldaşını qınayır, "düz eləmir, o puldan o da yeyib" yazırdı. Kimisi qayınanasını qınayırdı. Lakin əsl qınaq mənbəyi cinayətkar olmalıdır. Biz ictimai qınaqla qadınlarımızı səhv yoldan çəkindirə bilərik.

Kaş ki ümumiyyətlə, cinayət olmaya. Qadınlarımız xüsusilə çirkin işlərin içində olmayalar. Son illər qadınların törətdiyi cinayətlərlə bağlı ölkəmizin statistik göstəricilərinə də nəzər saldım. Maraqlı faktlarla qarşılaşdım. Cinayət törətmiş qadınların sayı son 20 ildə ən yüksək göstərici olaraq 2005-ci ildə 2520, 2010-cu ildə 2318 nəfər olmuşdursa, sonrakı illərdə azalan xətt müşahidə olunur. Belə ki, 2019-cu ildə bu hal 1039, 2020-ci ildə isə 869 olmuşdur. Qeyd olunan illərin hər birində oğurluq, dələduzluq, xuliqanlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi kimi cinayət növləri üstünlük təşkil edir. Belə ki, 2020-ci ildə qadınlarımız tərəfindən 102 oğurluq, 98 dələduzluq, 34 xuliqanlıq, narkotik vasitələrlə bağlı 83 cinayət törədilmişdir. 2020-ci ildə törətdiyi cinayətə görə 399 qadın həbs olunmuşdur.

869 cinayət 869 qadının məsuliyyətə cəlbi deməkdir. Lakin bizim adət-ənənələrimizdə qadının polis, məhkəmə, prokurorluq orqanlarına ayağının dəyməsi böyük qüsur hesab edilib. Qadın nədir, həmin strukturlara getdi nədir, deyilib. Buna çörə də çox təəssüf edilməli haldır ki, bizim 869 qadınımız sorğuya çəkilib. 399 qadın isə həbs olunub. Bu, 399 ailənin çırağının sönməsi deməkdir. Bu qadınlar arasında həbsxanada körpəsini dünyaya gətirənlərin də olduğunu nəzərə alsaq, yenə də çox təəssüflər olsun...

## Məşğulluq cinayətləri azaldan başlıca amildir

Bəzən belə bir iddia da ortalığa çıxır ki, qadınlar da, kişilər də işsizlik ucbatından, yəni ehtiyacdan cinayətə əl atırlar. Bəli, tək ehtiyacdan yox, məşğuliyyətsizlik də çox halda boş, avara həyat sürməyə, sonda isə hansısa qruplara qoşulub cinayət törətməyə vadar edə bilir. Təbii ki, burada psixoloji vəziyyət də əsasdır. Lakin hamının düşüncə səviyyəsi bir olmur ki.

Son illər ölkəmizin başçısı tərəfindən əhalinin məşğulluğu, yaşayış səviyyəsinin yaxşılaşdırılması, kasıblığın aradan qaldırılması ilə bağlı bir-birinin ardınca sərəncamlar imzalanır, saysız tədbirlər həyata keçirilir. Yeni iş yerlərinin açılması daim diqqətdə saxlanılır, bununla bağlı göstərişlər verilir. İllərdir ünvanlı sosial yardımın verilməsi, onun ardınca özünüməşğulluğun tətbiqi əhalinin həyat səviyyəsini özünün yüksəltməsi, dolanışıq yolunu müəyyənləşdirməsi üçün görülən əsaslı tədbirlərdəndir. Lakinin yenə də statistik göstəricilər işsizlik həddinin yüksək olduğunu göstərir. Məsələn son 10 ildə qadınların ən yüksək işsizlik həddi 2020-ci ildə olub, yəni 8,4 faiz. Hansı ki, bu rəqəm 2010-cu ildə 6,9, sonrakı illərdə az artıb, azalmaqla davam edib. Deməli, qadınlarımızın məşğulluğu aid strukturların diqqətində və nəzarətində olmalıdır.

Bir sözlə, qadın cinayətlərinin azalması, evlərin çıraqsız, gözlərin yollarda qalmaması, məhkum, məhbus uşaqların doğulmaması üçün hər kəs cəhd göstərməlidir. Təbii ki, hər kəs öz vicdanı daxilində və rəhbərlik etdiyi sahə üzrə...

*Mətanət MƏMMƏDOVA*

# Azərbaycan dilinin inkişafında Heydər Əliyevin rolu

## *Ümummilli Lider Heydər Əliyev: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"*

Bəli, dil hər bir xalqın milli sərvəti, mili kimliyinin daşıyıcısıdır. Onu qorumaq, yaşatmaq, əslində xalqın özünün yaşaması, özünü təsdiq etməsidir. Tarixboyu xalqların, millətlərin keçdiyi yol, onların mədəni səviyyəsi ilk növbədə ana dilində öz əksini tapır və istilalara, təzyiqlərə məruz qalsa da, Azərbaycan xalqı bu müqəddəs sərvəti qoruyub saxlaya bilib. Doğma dilimizin inkişaf etdirilməsində, dövlət dili statusu qazanmasında isə ümummilli lider Heydər Əliyevin böyük xidmətləri danılmazdır. Ulu Öndər bu sahədə özünün şəxsi nümunəsi ilə çox dəyərli örnək yaradıb. Ana dilinin tətbiq və fəaliyyət dairəsinin genişləndirilməsi, milli dilimizdə olan ədəbi-bədii irsin qorunması Heydər Əliyevin son dərəcə diqqət yetirdiyi sahələrdən olub. Təsadüfi deyil ki, məhz Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin rolunun artırılması, xalqın azadlıq istəyinin təcəssümü kimi ortaya çıxan ədəbi-bədii nümunələrin hücumlardan qorunması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi.

### ANA DİLİ HƏR BİR XALQIN VARLIĞINI TƏSDİQ EDƏN BAŞLICA AMİLDİR

Bəli, tez-tez işlətdiyimiz "ana dili milli sərvətimiz, kimliyimizin daşıyıcısı, varlığımızın təsdiqidir" deyirik. Çünki dil millətin formalaşmasında vacib olan amillərdən biridir. Çünki xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır, həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədir. Hər bir xalqın mövcudluğu onun dili ilə ölçülür. K.Uşinski demişdir: "Bir millətin, xalqın varını, dövlətini əlindən alsan, o millət ölməz, yaşayar. Ancaq ana dilini əlindən alsan, həmin millət məhv olar". Bəli, dilini itirən xalq məhvə məhkumdur.Lakin Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən Ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də verdi. Bunlarla kifayətlənməyən Ulu öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etdi.

### CƏSARƏT VƏ VƏTƏNƏ SADİQLİYİ TƏLƏB EDƏN MÖVQE

Bəli, Cəsarət və Vətənə sadiqliyi tələb edən mövqe. Bir çox ziyalıların cəsarət etmədiyi Cəsarət və Vətənə sadiqliyi. Bəli, bugün dünyada Azərbaycanlı olmağımıza, dünya xəritəsində Azərbaycan dövləti olmağımıza, imzası imzalar içində güclü dövlət olmağımıza görə ulu öndərimizə borcluyuq. Ulu öndər Heydər Əliyev deyirdi: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Keçmiş SSRİ dövründə "Sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət yeridilirdi, 1970-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə ki, ölkədə rəsmi dövlət dili rus dili idi, rəsmi tədbirlərdə bir qayda olaraq rus dilində çıxışlar üstünlük təşkil edirdi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycanın rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində, öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Ümummilli lider Heydər Əliyevin vətənə və xalqina sadiqliyini göstərən bu mövqeyi hər kəsə örnək oldu.



1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən Ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi. Xüsusilə, Ulu öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, Heydər Əliyevin təşəbbüsü və qətiyyəti nəticəsində həmin ildə qəbul olunan Azərbaycan SSR-in Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili rəsmi dil statusu kimi təsbit olundu. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri oldu. Daha sonra ittifaqın daha iki respublikası bu təşəbbüslə çıxış etmişdi. Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub. Tarix üçün o qədər də böyük zaman kəsiyi hesab olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri həyata keçirib. Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib. İkincisi, Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib. Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib. Dördüncüsü, Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib. Beşincisi, həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərib, başqalarına nümunə olub və s.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi. Millət vəkilinin sözlərinə görə, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev qısa bir zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail oldu. Yenidən, onun xüsusi diqqət yetirdiyi məsələlərdən biri də məhz dil məsələsi oldu. "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir" - deyən Ümummilli lider ana dili məsələsinə yeni səviyyədə - müstəqil dövlət quruculuğunun tələb etdiyi səviyyədə yanaşmağın nümünəsini yaratdı. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. 2001-ci ildə Ümummilli liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə oldu. Məhz Ulu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı.

30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili hüquqi statusunu nizamlayır.Ən əsası, ümummilli liderimiz bütün rəsmi və qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqdan çəkinməyərək, ana dilimizə verdiyi yüksək dəyəri vurğulayıb, dilimizin ictimai-siyasi mövqeyinin yüksəlməsinə zəmin yaradıb. Belə ki, ulu öndərin 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi ilə bağlı qərarı və bu yubileydəki çıxışı xüsusi qeyd olunmalıdır. 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illiyinə həsr olunmuş iclasında Ulu Öndər bu hadisəni belə qiymətləndirirdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində mən çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. O vaxt bu böyük sensasiya kimi qəbul olundu. Təəccüb doğurdu ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və heç də Azərbaycan dilində pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik etdilər. Dilini sevən, milli ruhla yaşayanlar bunu doğurdan, böyük hadisə kimi qəbul etdilər. Ancaq mən isə onlara dedim ki, qeyri - adi heçnə yoxdur. Bu mənim ana dilimdir və ana dilində çıxış etmək böyük qəhrəmanlıq deyil. Ana dilini bilməmək, onu qiymətləndirməmək, şübhəsiz, xalqın qarşısında qəbahətdir".

Ümummilli lider deyirdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".Bəli, Heydər Əliyevin bu cəsarətli addımı Azərbaycan ziyalılarında ruh yüksəkliyi yaratdı. Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

## FƏRMAN VƏ SƏRƏNCAMLAR ANA DİLİMİZİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ ATILAN MÜHÜM ADDIMLARDIR

2001-ci ildə Ümummilli liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz Ulu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında, bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı.30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ötən illər ərzində isə bu qanun xeyli dərəcədə təkmilləşdirilib. Ulu öndər Heydər Əliyevin qərarı ilə 1 avqust tarixi hər il "Azərbaycan Əlifbası" və "Azərbaycan Dili Günü" kimi qeyd olunur.Müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə Ümummilli Lider demişdir: "Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var".

Ümummilli lider Heydər Əliyevin məşhur bir fikrini dönə-dönə xatırlamaqla duyduğumuz qürurun böyük mənası var: "Millətin milliliyini saxlayan onun dilidir".Həmçinin, bundan əlavə, qəbul edilən digər Fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Məhz ümummilli liderimizin zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması və bağlılığı sayəsində 60-cı illərin sonlarından başlayaraq həyata keçirilən dil siyasəti doğma dilimizin günbəgün saflaşmasına, zənginləşməsinə və inkişaf etməsinə şərait yaratdı".

## "AZƏRBAYCAN DİLİNİN QORUNMASI HAMIMIZIN VƏZİFƏSİDİR"

Ümummilli liderin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşıb. Ölkə rəhbərinin hələ 18 il öncə, 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"kı sərəncamı əlifba ilə bağlı problemləri aradan qaldırdı. Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Bu sahədə mühüm və uğurlu tədbirlərdən biri də ölkə rəhbərinin 18 il bundan əvvəl imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında"kı sərəncamı oldu. Bu sərəncamların nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynadı. Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

Ölkə Prezidenti İlham Əliyev bölgələrdə keçirdiyi görüşlərdə də həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşaraq onun dəyərlərindən söz açır. Prezident demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir".

Sovet dönəmində Azərbaycan dilçilərinin dünyada gedən proseslərdən təcrid olunması ilə əlaqədar ölkəmizdə dilçilik sahəsində müəyyən boşluqlar yaranmışdı və bunları aradan qaldırmaq üçün dövlət başçısı İlham Əliyev 2013-cü il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir".

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Və bu gün ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin - Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktorlardan biri kimi çıxış etməsini şərtləndirib.

Dövlət başçımızın dediyi kimi: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

**RƏFİQƏ KAMALQIZI**

# Mixail Qusman: "Dünya azərbaycanlılarının V qurultayının Şuşada keçirilməsi böyük hadisədir"

**Dünya azərbaycanlılarının V qurultayı kimi iri tədbirin işğaldan azad edilmiş Şuşada keçirilməsi böyük hadisədir. AZƏRTAC-ın müxbirinə bu sözləri TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) tələbələri ilə görüşdən sonra söyləyib.**



M.Qusman deyib: "Fikir verin. Dünya azərbaycanlılarının qurultayı Şuşada keçiriləcək. Biz bu hadisəni illər boyu gözləmişik, bu barədə dua etmişik. Çox yaxşı haldır ki, bu tədbir işğaldan azad edilmiş Şuşada keçirilir. Biz hamımız Azərbaycan Prezidentinin çıxışını gözləyəcəyik".

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini MDBMİ tələbələri ilə görüşdən aldığı təəssüratları da bölüşərək vurğulayıb ki, gənclərlə görüş həmişə maraqlıdır. O deyib: "Ona görə ki, belə ünsiyyət nəticəsində təkcə onlar yox, mən özüm də müəyyən təcrübə qazanıram. Bizim gözəl gənc nəslimiz var, Bakıda çox yaxşı gənclər var. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda bizim gənc həmyerlilərimiz oxuyur, MDBMİ-nin azərbaycanlı tələbələrindən ibarət komanda fəaliyyət göstərir. Onlarla görüşməyə çox şadam. Hamısı vətənpərvər gənclərdir, hamısı öz ölkəsini sevir. Bilirəm ki, onlar universiteti bitirəndən sonra öz vətənlərinə qayıdacaq, öz ölkəsinə faydalı insanlar olacaqlar. Bizim azərbaycanlı gənclərin gözlərində bir nur var. Bu nurlu gözlər hər şeydən gözəldir".

# Süreyya Er: "TÜRKPA türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərir"




"Bakıda olmağımızdan və Azərbaycan paytaxtının TÜRKPA-nın seminarına ev sahibliyi etməsindən çox məmnunuq. TÜRKPA yarandığı gündən türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi və bir-birinə dəstəyin təmin edilməsi istiqamətində səmərəli fəaliyyət göstərir."

Bu fikirləri TÜRKPA-nın Baş katibi Süreyya Er Milli Məclisdə keçirilən "Əhalinin sosial cəhətdən həssas qruplarının sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi: reallıqlar və perspektivlər" mövzusunda seminarda deyib.

Pandemiyanın iqtisadiyyata mənfi təsirlərindən danışan TÜRKPA-nın rəsmisi bildirib ki, bu kontekstdə həssas qruplardan olan insanların vəziyyəti daha da ağırlaşıb. TÜRKPA-nın bugünkü seminarı bu məsələlərin aradan qaldırılmasına öz töhfəsini verəcək.

# Ərəb portalları Azərbaycanın unudulmuş mayakları barədə məqalə yayımlayıb


وكالة الصحافة المستقلة

منارات أذربيجان المنسية – التي تضيء شواطئ بحر قزوين

XIX əsrin ortalarından başlayaraq mühüm strateji region kimi tədqiq edilən Xəzər dənizinin sahilində yerləşən Azərbaycanın unudulmuş mayakları barədə ərəb portallarında məqalə yayımlanıb.

Belə ki, Misirin "Yeni dünya xəbərləri", Əlcəzairin "Cəzairinfo", İraqın "Əfkarhura" və "Kitabat" portallarında yayımlanan məqalədə Xəzər dənizindəki 9 mayak barədə ətraflı məlumat verilib. Yazının müəllifi, suriyalı türkmən tədqiqatçı Muhtar Fatih Beydili ərəbdilli oxucuların diqqətinə çatdırıb ki, Xəzər dənizini işıqlandıran və gəmilərə yol göstərən mayaklar XIX əsrin ortalarında aparılan sistemli tədqiqatlar nəticəsində hazırlanan və 22 xəritədən ibarət olan yeni atlasda əks olunub. Məqalədə elmi-tədqiqat əsərlərinə istinadla qədim tikililər üzərində quraşdırılmış və XIX əsrə aid olan "Abşeron", "Lənkəran", "Amburan", "Nargin", "Çilov", "Astara", "Kür" mayakları barədə geniş məlumat verilib.



# Ermənistan "Troya atı" rolunda

## Yaxud Brüssel və Moskva görüşlərindən İrəvan hansı nəticələri çıxarıb?

Bu gün Ermənistanda Paşinyanı və onun komandasını nə qədər tənqid etsələr də, yenə də onun pislərin ən yaxşısı olduğunu etiraf etməkdən başqa cərə qalmayıb. Nikolun Moskva səfəri ərəfəsində başlanan mitinq dalğası Ermənistanda hələ də davam etməkdədir. Toplantılar, etiraz aksiyaları, müqavimət və ya nə adlanırsa, bu gün demək olar ki, bütün müxalifət meydandadır. Bir-biri ilə o qədər də yaxşı yola getməyən Köçəryan və Sarkisyanın tərəfdarları, daşnaklar və sağ mərkəzçi Çarukyan, rusiyayönümlü və qərbyönlü qüvvələr bir impulsda və Paşinyana nifrətində bir-birinin yanında dayanmaq zorundadırlar. Və hamı indiki hökumət başçısını və onun komandasını hakimiyyətdən uzaqlaşdırmaq üçün istənilən "yol xəritəsi"nə hazırdırlar. Hətta şanslarının son dərəcə aşağı olduğunu da dərk etmirlər.

İndiki hakimiyyətin arsenalında olan repressiya aparatı da müxalifət üçün bir o qədər də qorxuducu görünmür. 2018-ci ilin yazında Sarkisyanın repressiya aparatı heç də indikindən zəif deyildi və buna baxmayaraq, bu imkanlar onu devrilməkdən xilas edə bilmədi. Məsələ ondadır ki, məyusluq və depressiyaya, sosial-iqtisadi vəziyyətin çətin olmasına baxmayaraq, heç kim əvvəlki hakimiyyətin bərpasını, Sarkisyan, yaxud Koçaryanın ölkəyə rəhbərlik etməsini də istəmir, qəti şəkildə rədd edir. Ermənstanda hazırda küçələrdə olan müxalifət Nikolun və onun komandasını nə qədər tənqid etsələr də, onu pislərin ən yaxşısı adlandırırlar.





### Ermənistanda nələr yaşanır?

Bəli, cəmiyyət indi həddindən çox qütbləşib, bir sözlə Ermənistanda kələfin ucu itib. Bəs müxalifətə dəstək üçün küçələrə çıxanların sayı nə qədərdir, yaxun nə qədər erməni müxalifətin aksiyakarına dəstək verir? Ən uzağı min nəfər. Bu da yetərli deyil, hətta biabırçı göstəricidir. Deməli müxalifətə ümid o qədər azalıb ki, Paşinyanın atdığı ən antimilli addımlara da cəmiyyətin etirazı yoxdur. Cəmiyyətin böyük hissəsi "keçmişə" xor baxır və onlar üçün barrikadalara getməyə hazır deyil. Üstəlik, sadə insanlar müxalifətin əsas qüvvələrinin - "Ermənistan" və "Mənim şərəfim var" bloklarının qorxaqlığını görür. Görün, "Mənim şərəfim var" blokunun əsas qüvvəsi olan Respublikaçılar Partiyası tərəfindən hakimiyyətə qarşı hansı ittihamlar səsləndirilir: "Paşinyan Əliyevlə birlikdə Minsk qrupu həmsədrlərinin fəaliyyətinə qarşıdır, bu formatın əleyhinədir". Halbuki, ATƏT-in Minsk qrupunun dağılmasının, fəaliyyətsizliyinin günahı elə həmin təşkilatı idarə edənlərdədir. 28 il "turizm diplomatiyası" ilə məşğul olmağın sonu belə olmalı idi. Fransa, ABŞ və Rusiyadan olan həmsədrlər formatı Rusiya ilə Qərbin qarşıdurmasından sonra mövcudluğuna birdəfəlik son qoydu. Həmsədrlik institutu daxilində getdikcə dərinləşən çat uzun müddət kosmetik dəyişikliklərlə yoluna davam edə bilməzdi. Rusiya da XİN başçısı Lavrov və onun sözçüsü Zaxarovanın ağzı ilə faktiki olaraq ATƏT-in Minsk qrupunun "öldüyünü" elan etdi.

Bəs Serj Sarkisyanın rusiyayönlü partiyası Moskvanı tənqid edə bilərmi? Əlbəttə yox. Cəmiyyətin bu primitiv yemə düşəcəyinə sadəlövhcəsinə inanan serjikovçular üçün Paşinyanı günahlandırmaq daha asan və təhlükəsizdir. Eyni zamanda, Köçəryan və Sarkisyanın sponsorluq etdiyi mətbuatda dərc olunan yazılarda Paşinyanın Moskvaya səfəri tənqid olunur. Erməni müxalifəti belə düşünür ki, Nikol nəhayət Qarabağı Rusiyanın istəklərinə uyğun olaraq təslim edəcək. Ermənilər ehtimal edirlər ki, İrəvanı "sındıranlardan biri elə Putindir.



İndi erməni əhalini meydanlara çağıranlar hesab edirlər ki, Rusiya ilə münasibətləri Paşinyandan daha yaxşı qura bilərlər. Müxalifət itirilmiş əraziləri geri qaytarmağa söz verir. Bəs onlar bunu necə edəcək? Ona görə də erməni xalqı Paşinyanı bəyənməsə də, ürəyində anlayır ki, indiki geosiyasi şəraitdə Moskvanın, Bakının və Ankaranın, Brüsselin maraqlarının üst-üstə düşdüyü bir vaxtda Ermənistanın fərqli düşünmək, fərqli addım atmaq variantı demək olar ki, sıfırs bərabərdir. Beləliklə, ən pisin ən pisindənsə, ən pisin ən yaxşısının hakimiyyətdə olması daha yaxşıdır.

"Hraparak" qəzeti yazır ki, Nikol Paşinyan daha bir böyük intriqa "köynəyi" toxuyur. O, Moskvaya yola düşmə ərəfəsində Qarabağdakı separatçıların başçısı Arayik Arutyunyan və "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyanı qəbul edib. Qarabağın Moskvada Azərbaycana təslim olacağı sülh sazişinin müqəddiməsinə çevriləcək bəzi sənədlər imzalayacağına əsaslı şübhələr var. Hər iki separatçı Paşinyanı status məsələsində güzəştə getməməyə çağırıb. Paşinyan isə deyib ki, kim Qarabağı Azərbaycanın bir hissəsi kimi gördüyünü deyirsə, onu səhv başa düşüb. Bununla da baş nazir səfər ərəfəsində müxalifəti qismən də olsa neytrallaşdırmağı bacarıb və vaxt udub. Müxalifətin daha radikal kəsimi isə əksinə Paşinyanın onları aldatdığını və artıq Qarabağın taleyinin həll olunduğu düşünür. Əgər ordudakı bəzi qüvvələr baş nazirin əmrlərinə qarşı çıxsa, müharibə qaçılmaz olacaq və bundan sonrakı məğlubiyyətlərin, itkilərin hesabını müxalifət, daha doğrusu Paşinyanın "yol xəritəsi"nə qarşı çıxanlar ödəməli olacaqlar.

### Bəs Putin-Paşinyan görüşündə nədən danışılıb?

Azərbaycanın ərazi bütövlüyünü tanımağa razı olduğunu deyən Ermənistanın Baş naziri Nikol Paşinyan yenə mövcud olmayan "Dağlıq Qarabağ münaqişəsi" haqda danışıb. Rusiya prezidenti Vladimir Putin isə görüşün protocol hissəsində "Dağlıq" deyil, üstəlik "münaqişə" deyil, sadəcə Qarabağdakı bəzi "problemlər" barədə söhbət aparıb.

Paşinyan Rusiyaya gəlməzdən əvvəl Brüssellə təmasları yeni planlar qurmaq, yeni göstərişlər almaq üçün idi. Rusiya Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Paşinyan da bunları bilir, amma Qarabağda yaşayan ermənilər üçün ən yüksək statuslu muxtariyyət almaq istəyir. Və Paşinyan elə muxtariyyət istəyir ki, Qarabağ formal olaraq Azərbaycanın tərkibində olsa da erməni anklavı kimi saxlanılsın. Yəni Qarabağ Azərbaycanla müstəqil siyasət qursun və Ermənistana sıx bağlı olsun. Təbii ki, bu da Azərbaycanı qane etməyəcək. Azərbaycan SSRİ dönəmində muxtariyyət status altında terrorçuluğa, yüz minlərlə azərbaycanlının öz doğma yurdundan qaçqın düşməsinə, on minlərlə vətəndaşımızın öldürülməsinə səbəb olan erməni separatçılığının, terrorçuluğunun bir daha baş qaldırmasına imkan verməyəcək.

Ermənistanın ATƏT-in Minsk qrupunu yenidən danışıqlar prosesinə cəlb etmək cəhdləri isə rəsmi İrəvanın regionda Qərbin maraqlarını təmin etməyə hesablanıb. Qətiyyətlə demək olar ki, İrəvan "Troya atı" rolunu oynayır. Ermənistanla yaxın münasibətdə olan Makron Fransada keçirilən prezident seçkilərində ermənilərin səsini qazanmaq üçün tərəfkeşlik edirsə, Brüsselin hərəkətləri Rusiyanı Cənubi Qafqazdan birdəfəlik vurub çıxarmaq üçündür. Bunu Rusiyada da başa düşürlər.

ABŞ da Brüsseldən geri qalmır, Ermənistanı Rusiyadan uzaqlaşdırmaq üçün bütün yollardan məharətlə istifadə edir. Bu ölkənin Ermənistandakı səfiri Lin Treysi rəsmi İrəvanı Rusiyaya qarşı sanksiyalara qoşulmağa çağırıb. Səfir Ermənistan banklarının Rusiya əleyhinə sanksiyalara qoşulmaq niyyətində olduğunu deyib. Onun sözlərinə görə, təxminən bir ay əvvəl o, Ermənistan bankları ilə görüş keçirib və həmin bankları Rusiyaya kömək etməkdən çəkinməyə çağırıb: "Birləşmiş Ştatlar Ermənistanın beynəlxalq sanksiyalara sadiqliyini yüksək qiymətləndirir və bu məsələ ilə bağlı Ermənistanın bank sektorunun nümayəndələri ilə müntəzəm əlaqə saxlayır", - Treysi vurğulayıb.

Ermənistanda yaxın gələcəkdə daxili dalğalanma, kifayət qədər ciddi ixtilaf və təlatüm olacağı qaçılmazdır. Vaşinqtonun Rusiyaya qarşı sanksiyalar siyahısı demək olar ki, hər həftə yenilənir. Kanada, Böyük Britaniya, Aİ ölkələri və Yaponiya artıq ABŞ-ın yanındadır. Ermənistan Rusiyanın müttəfiqidir. Ölkə müxtəlif platformalarda, o cümlədən BMT platformasında Moskvanı dəstəkləyir. Amma erməni cəmiyyəti mürəkkəbdir, orada müxtəlif xarici ölkələrin təsir rıçaqları qorunub saxlanılır. Bundan sonra Ermənistanın taleyi necə olacaq, bunu zaman göstərəcək.

**V.VƏLİYEV**

ANALİZ

# Rus ekspert: “Yerevan Rusiyanın, yoxsa Qərbin yanında olduğuna qərar verməlidir”

**Artıq bir neçə gündür ki, İrəvanda Ermənistan müxalifətinin Azərbaycanla münasibətlərin normallaşması prosesi ilə bağlı hazırkı hakimiyyətin siyasətinə qarşı etiraz aksiyaları keçirilir. Aksiyalar ”Qarabağ və Ermənistanın xilası” şüarı altında keçirilir. Maraqlıdır ki, mahiyyətcə rusiyayönlü müxalifət də Nikol Paşinyanın Rusiyaya səfəri ilə bağlı ”qəzəblənir” və baş nazirin Qarabağ məsələsində ”daha çox güzəştlərə gedəcəyini” deyirlər.**

SİA xəbər verir ki, rusiyalı politoloq Vasili Koltaşov Ermənistanın baş naziri Nikol Paşinyanla Rusiya prezidenti Vladimir Putinin görüşünü Caliber.Az-a şərh edərkən deyib ki, Kreml İrəvana təzyiq göstərir ki, bir tərəfdən sıx əməkdaşlığa diqqət yetirsinlər. Digər tərəfdən də Rusiya Azərbaycan-Ermənistan münasibətlərində gərginliyin aradan qaldırılması üçün əldə edilmiş razılaşmaların həyata keçirilməsi üçün çalışır.

”Moskva maraqlıdır ki, Bakı və İrəvan düşmənçiliyi dayandırsın və diqqətini iqtisadi məsələlərə yönəltsin. Londonun, Vaşinqtonun, Brüsselin maraqlı olduğu Cənubi Qafqazda yenidən böyük müharibənin başlaması Rusiyaya sərfəli deyil. Bölgənin inkişaf etməsi, burada tranzitin təmin edilməsi və bütün qarşılıqlı iddiaların aradan qaldırılması Rusiyanın maraqlarına uyğundur. Nəhayət, azərbaycanlılar və ermənilər bir-birinə nifrət etməyi dayandırsınlar və bir regionda dinc yanaşı yaşamağı öyrənsinlər. Yeni müharibə Qafqazda Rusiya, İran və Türkiyənin iştirak edəcəyi böyük münaqişəyə səbəb ola bilər. Azərbaycan və Ermənistan üçün bu, onların ərazisinin döyüş meydanına, bu qüvvələr arasında toqquşma zonasına çevrilməsi ilə nəticələnəcək. İlk növbədə, hadisələrin belə inkişafında Rusiya maraqlı deyil”, - Koltaşov bildirib.



Ermənistandakı daxili siyasi vəziyyətə gəlincə, politoloqun fikrincə, indi İrəvanda dövlət çevrilişi və hakimiyyət dəyişikliyindən danışmağa dəyməz.

”Paşinyan hakimiyyətdə qaldı və Moskva ilə nisbətən balanslı münasibət qura bildi. Bu, artıq o deməkdir ki, İrəvanda son Qarabağ hadisələri ilə bağlı cəmiyyət həddindən artıq gərgin olsa da, Ermənistanda hər hansı daxili siyasi dəyişiklik gözləmək lazım deyil. Ona görə də Paşinyan çətin ki, hakimiyyəti itirsin. Moskva yaxşı başa düşür ki, Ermənistanın daxili siyasi məsələsi ictimai əhval-ruhiyyənin yenidən nəzərdən keçirilməsi yolu ilə həll edilməlidir. Ermənistanın özündə də əvvəlki siyasi liderlər xalqda az inam yaratmışdı. Səbəb odur ki, onlar uzun müddət hakimiyyətdə olublar və onlarla bağlı olan ermənilərin gözləntiləri hakim rejimlərin işinin nəticələrindən qat-qat böyük olub. Ona görə də Ermənistanda cəmiyyətin müəyyən hissəsi ümid edir ki, şəraitə görə Paşinyan hansısa yolla ölkəni böhrandan çıxara biləcək. Paşinyan bu amil üzərində manevr etməyə çalışır.

Öz növbəsində Moskva Paşinyanı devirmək yox, Ermənistan cəmiyyətindəki əhval-ruhiyyəni yenidən nəzərdən keçirmək istərdi. Paşinyan prinsipcə Sorosa və amerikalılara xəyanət etməyə qadirdirmi? Amerikalılar özləri 2020-ci ildə ona xəyanət etdilər. 2020-ci ildə Ermənistan-Azərbaycan müharibəsi zamanı Amerikanın yardımı harada idi? Harada? Əvəzində press-relizlər, şablon bəyanatlar və bəzi bəlkə də əhəmiyyətsiz ianələr var idi. Qətnamələrin qəbulu ilə bağlı bəzi ucqar ştatlarda erməni icmalarının görüşləri kimi bir şey var idi. Ciddi deyil. Bütün bunlar həmrəyliyin ifadəsi üçün heç nə deyil. Amma Paşinyan Qərb himayədarlarından dəstək gözləmirdi. Düşünürəm ki, Paşinyanın Moskvaya səfəri ərəfəsində İrəvanda və ümumilikdə Ermənistanda mövcud hakimiyyətə qarşı etirazlar baş nazir üçün aşağıdakı məqama aydınlıq gətirməlidir: o, hansı yolda tərəddüd etməli olduğuna qərar verməlidir.

Əgər o, hələ yıxılmayıbsa və gücünü itirməyibsə, deməli, bu, onun düzgün istiqamətdə, yəni Moskvaya doğru tərəddüd etməsi ilə bağlı olub. Məhz bu vəzifəni o, davam etdirməlidir”, - Koltaşov bildirib.

*Tərcümə - Elçin Bayramlı*

# Nabiullina açıqladı: ”Qərb Rusiyanın 300 milyard dollarını dondurub”

***...Qərb ölkələri Rusiya Bankının ümumi məbləği təxminən 300 milyard dollar olan ehtiyatlarını dondurub. Lakin məzənnənin gündəlik olaraq dəyişməsini nəzərə alsaq bu barədə dəqiq rəqəm söyləmək hələ ki, çətindir. SİA TASS-dan əldə etdiyi məlumata istinadən xəbər verir ki, bunu Dövlət Dumasında Rusiya Bankının rəhbəri Elvira Nabiullina deyib. Onun sözlərinə görə, valyuta məzənnələri hər gün dəyişir və ona görə də Qərbdə dondurulmuş pulların dəqiq məbləğini söyləmək çətindir.***

”...Təxminən 300 milyard dollar. Mən niyə belə deyirəm? Çünki bu rəqəm gündən-günə dəyişə də bilər. Məsələn, 296, 302-də ola bilər. Niyə? Çünki dondurulmuş ehtiyatlar təkcə dollarla deyil, müxtəlif valyutalarda ifadə olunur. Dollarla desək, payı azdır. Avro və funt-sterlinq var, vəssalam və hər gün onların məzənnəsi dəyişir”. Bunları Nabiullina bildirib. Öz növbəsində, Rusiya Federasiyasına məxsus qızıl-valyuta ehtiyatlarını heç kimin götürmədiyini deyən Dövlət Dumasının sədri Vyaçeslav Volodin bu sərvətlərinin bəzilərinin artıq dondurulduğunu da diqqətə çatdırıb. Volodin onu da bildirib ki, Rusiya onları nəinki geri qaytaracaq, hətta faizini də alacaq.

Deyim ki, bu ”dar macalda” Dövlət Duması ”imkan tapıb” Nabiullinanın səlahiyyətlərini də uzadıb.

Yeri gəlmişkən qeyd edək ki, bir müddət bundan əvvəl Elvira Nabiullina Rusiyadakı bütün lazımi maliyyə resurslarına diqqət çəkərək ölkəni heç bir defolt gözləmədiyini bildirib rusları sevindirmişdi.

...Yenə də...gəlmişkən deyim, gərək ki yaşı bir az çox olanlar xatırlamış olar. Vaxtilə Sovetlər birliyinə-SSRİ-yə məxsus bütün maliyyə resurslarının çoxu ”birlik” dağılandan sonra ruslara qaldı. Əslində qalmadı özləri qamarladılar.

Etiraf edim ki, vaxtilə, bu zəngin resurslardan 240 milyonluq əhalisi olan SSRİ əhalisi elə də yararlana bilmədi. Halbuki həmən ərəfədə 1 milyard 200 milyon əhaliyə sahib olan Çin belə Sovetlər birliyində yaşayanlardan yaxşı yaşayırdı. Deyim



ki, bu ölkə ərazinə əta edilmiş təbii resurslar SSRİ ilə müqayisədə ölçüyəgəlməz dərəcədə az idi.

Deməli, bu gün Elvira Nabiullinanın dediklərinə inansaq, əslində bu onun defoltla bağlı səsləndirdiyi təhlükəsizliyə heç bir əsasmı deyim, zəmanətmi deyim... vermir. Niyə? Çünki, ölkələri adətən bacarıqlı kadrlar düzgün idarə edib, elə güz yola da istiqamətləndirirlər. Yəni bacarıqlı kadrlar hər bir ölkə üçün güclü qüvvədirlər. Təbii ki, bu mövzuda danışası olsaq, uzun çəkəcək. Ona görə də, Rusiya idarəçiliyi ilə bağlı, sadəcə olaraq, rus yazarı Mixail Saltıkov-Şedrindən bir misal çəkəcəyəm. Gəlin elə bunu da ”sadəcə olaraq” kimi təqim edək. Beləliklə, Saltıkov-Şedrin hələ 19-cu əsrdə yazırdı ki, ”...əgər 100 ildən sonra məni oyadıb Rusiyada nə baş verdiyini soruşsalar, cavab verəcəm: içib oğurlayırlar”.

***Ağasəf Babayev***

# AzerTelecom və Sparkle “Rəqəmsal İpək Yolu” layihəsi çərçivəsində əməkdaşlıq edəcək

**İtaliyanın ilk beynəlxalq xidmət provayderi və dünyanın aparıcı operatorlarından biri olan Sparkle şirkəti ilə Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatoru AzerTelecom şirkəti arasında Azərbaycan vasitəsilə Avropa və Asiyanı birləşdirən rəqəmsal telekommunikasiya dəhlizinin yaradılması məqsədini daşıyan ”Rəqəmsal İpək Yolu” layihəsi çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.**

2020-ci ildə ”Global Strategic Infrastructure Leadership Forum”-u çərçivəsində Asiyanın ən yaxşı beş strateji infrastruktur layihəsindən biri seçilən ”Rəqəmsal İpək Yolu” layihəsi NEQSOL Holding-in təşəbbüsü ilə AzerTelecom şirkəti tərəfindən həyata keçirilir. Layihənin məqsədi Azərbaycanda informasiya texnologiyalarının və rəqəmsal ekosistemin inkişafı, eləcə də ölkəni regionun rəqəmsal mərkəzinə çevirməkdir.

”Capacity Middle East 2022” qlobal telekommunikasiya tədbiri zamanı imzalanmış sənəd çərçivəsində, tərəflər yeni biznes imkanlarını qiymətləndirmək, Mərkəzi Asiya ilə Avropa arasında yeni iki tərəfi ötürmə qabiliyyətli dəhlizin birgə yaradılması və idarəedilməsi imkanlarını araşdırmaq, eləcə də Sparkle şirkətinin Türkiyədən İtaliyaya və bütün əsas Avropa mərkəzlərinə qədər uzanan mövcud magistral infrastrukturundan istifadə barədə razılığa gəliblər.



”Rəqəmsal İpək Yolu layihəsi telekommunikasiya sahəsində regional əməkdaşlıq üçün yeni imkanlar açır. Layihə Avropa və Asiya arasında ən qısa olacaq yeni rəqəmsal marşrut yaratmağa imkan verir. İnanırıq ki, yeni marşruta böyük maraq göstərən Sparkle şirkəti ilə əməkdaşlığımız şirkətlərimiz üçün faydalı olacaq və regionda rəqəmsallaşmanın sürətləndirilməsinə kömək edəcək”, - deyə AzerTelecom şirkətinin Direktorlar Şurasının sədri Fuad Allahverdiyev bildirib.

”Operatorlar arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyi sənaye kontekstində biz qlobal rəqəmsal rabitədə dayanıqlılıq və təhlükəsizliyə artan ehtiyaca cavab verərək performansı yaxşılaşdırmaqla yanaşı, mövcud olan marşrutlara şaxələndirmə əlavə edən Avropa və Asiya arasında bu yeni marşrutda AzerTelecom ilə ”Rəqəmsal İpək Yolu” layihəsinə qoşulmaqdan çox məmnunuq”, - deyə Sparkle şirkətinin Baş icraçı direktoru Elisabetta Romano bildirib.

AzerTelecom haqqında:

NEQSOL Holding-in tərkibinə daxil olan AzerTelecom Azərbaycanı qlobal internetə birləşdirən aparıcı topdansatış telekommunikasiya operatorudur. NEQSOL Holdinq səkkiz ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti kimi sahələrdə fəaliyyət göstərən çoxşaxəli şirkətlər qrupudur. AzerTelecom haqqında daha ətraflı məlumatı şirkətin Twitter and LinkedIn-də profillərini izləməklə və ya www.azertelecom.az saytına daxil olmaqla əldə etmək olar.

Sparkle haqqında:

Sparkle Avropadan Afrikaya, Amerika və Asiyaya qədər uzanan 600.000 km-dən çox fiber-optik kabeldən ibarət magistrala malik İtaliyanın ilk beynəlxalq xidmət təminatçısı və dünyanın aparıcı şirkətlərindən biri olan bütövlüklə TIM Group-a məxsus qlobal operatordur.

Qlobal IP, məlumat, bulud texnologiyaları, məlumat mərkəzi, mobil məlumat və səs platformalarından istifadə edərək Sparkle müəssisələr, Internet Xidmət Təminatçıları, OTT-lər, media və məzmun pleyerləri, tətbiq xidmət təminatçıları, həmçinin sabit və mobil şəbəkə operatorları üçün İKT həllərinin tam çeşidini təklif edir. Onun satış komandası bütün dünyada aktivdir və 32 ölkədə fəaliyyət göstərir. Sparkle haqqında ətraflı öyrənmək üçün şirkətin Twitter və LinkedIn profillərinə və ya tisparkle.com saytına daxil ola bilərsiniz.

# "Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də ana dilimizə dövlət dili statusunun verilməsidir"

"Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, hər bir xalqın dili onun milli sərvəti, xalqın mövcudluğunun əsas göstəricilərindən biridir. Buna görə də hər bir xalqın ana dili onun qürur mənbəyidir. Ana dilimiz də dövlət rəmzlərimiz olan gerbimiz, bayrağımız, himnimiz kimi müqəddəsdir və bu müqəddəsliklərin hər biri məhz tərəfindən qorunmalı, saxlanılmalı və gələcək nəsillərimizə ötürülməlidir". Bu fikirləri SİA-ya YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi qəbul olunmasını əks etdirən və 1978-ci ilin 21 aprel tarixində Azərbaycan SSR Konstitusiyasında yer alan tarixi əhəmiyyəti şərh edərkən deyib. Onun sözlərinə görə, Azərbaycan dili zəngin və qeyri-adi gözəlliyə malik bir dil olması ilə yanaşı, həm də əcdadlarımızın bizə miras qoyulub: "Bayatılarımızdan, nağıllarımızdan, laylalarımızdan, dastanlarımızdan, bizə gəlib çatan Azərbaycan dili həm ulu mədəniyyətimizin mühüm parçasıdır. İmaməddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Səməd Vurğun kimi dahi yazıçılarımızın yaradıcılığı dilimizin zənginliyinə və gözəlliyinə olan danılmaz sübutdur".



Abil Ağasəfov vurğulayıb ki, 1978-ci ildə SSRİ-nin son Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə isə bütün qadağa və təhlükələrə baxmayaraq, Ulu Öndər Heydər Əliyev ölkəmizin rəhbəri kimi ana dili məsələsində öz mövqeyini kifayət qədər cəsarətlə, qətiyyətlə bildirdi: "1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddənin "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" redaksiyada vermək təklif olundu və Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorudu".

"Müstəqillik illərində Azərbaycan dili tarixinin öyrənilməsi, tədqiqatı geniş vüsət almışdır", deyə qeyd edən YAP Qəbələ rayon təşkilatının sədri onu da vurğulayıb ki, dilimizin inkişaf etdirilməsi ilə bağlı müxtəlif tarixlərdə bir sıra addımlar atılmışdır: "1995-ci il noyabrın 12-də qəbul edilən müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi öz təsdiqini tapdı. Konstitusiyanın 21-ci bəndində belə deyilir: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin etməlidir."

Bununla yanaşı, Abil Ağasəfov daha bir xatırlatma edərək 2018-ci il noyabrın 1-də Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı Fərman haqqında fikrini bildirdi və qeyd etdi ki, məhz bu Fərman vasitəsi ilə dilimizin, onun tarixinin, mənşəyinin öyrənilməsinə daha çox diqqət yetirilməsi məsələləri öz əksini tapdı: "Bununla yanaşı, dövlətimizə dəstək olaraq bizlər də dilimizin saflığını qoruyub saxlamalıyıq. Müasir dövrümüzdə sosial şəbəkələrdən istifadədə virtual məkanda, radio və televiziyada, mətbuatda və dövlət idarələrində dilimizdən istifadə edərkən, həmçinin dilimizin saflığının qorunması da düşündürücü məqamlardan biridir. Bunun üçün də biz doğma dilimizin qrammatik, leksik qaydalarına riayət edərək ondan istifadə etməliyik ki, doğma dilimizin saflığı pozulmasın. Biz müqəddəs ana dilimiz olan Azərbaycan dilinə qayğı göstərməli, onu sevməli və qorumalıyıq ki, gələcək nəsillərimiz də bu yolu davam etdirsinlər, yaratsınlar, təbliğ etsinlər".

***Rövşən RƏSULOV***

# Repressiyanın qurbanına çevrilən mübariz ruhlu şair

## *Dövlət başçısının Sərəncamı ilə istiqlal şairi Əhməd Cavadın 130 illiyi qeyd ediləcək*

Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən Əhməd Cavad bütün yaradıcılığı boyu vətənpərvərlik duyğularını nəzmə çəkərək vətənimizin azadlığı, müstəqilliyi yolunda mücadilə etmişdir. Hər misrasından Vətənimizin səsi gəlirdi. Mübariz ruhlu şairin milli məfkurəsindən yaranmış əsərləri poetikliyi, zənginliyi ilə ədəbiyyatımıza yeni nəfəs, ruh gətirmişdir. Belə yaradıcı insanlar cismən aramızda olmasalar da, yaratdıqları irs zaman-zaman yaşayır və onları da yaşadır. Dövlətimiz tərəfindən diqqət ayrılır, onların yubiley tədbirləri dövlət səviyyəsində qeyd olunur. Məlumdur ki, 2022-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın anadan olmasının 130 illiyi tamam olur. Azərbaycan Prezidenti İlham Əliyev Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli şair Əhməd Cavadın 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək.

Xatırladaq ki, Əhməd Cavad 1892-ci il may ayının 5-də Gəncə qəzasında ruhani ailəsində anadan olub. Şairin atası-Şəmkir mahalında öz savadı ilə seçilən Axund Məhəmmədəlinin özü də Gəncəbasar bölgəsində ruhani ailəsində boya-başa çatmışdı. Babaları köklü tacir və ziyalı mühiti ilə bağlı olub. Ə.Cavadın anası Yaxşı xanım xalq ədəbiyyatının mahir bilicilərindən olub. Cavad ilk təhsilini üç il kənddə molla yanında almış, ərəb və fars dillərini dərindən öyrənmişdir. Bu, onun Şəmkirdə aldığı ilk və sonuncu təhsil idi. O, artıq yeddi yaşında olarkən "Qurani-Kərim"i oxuyur və bir çox surələri əzbərdən deyirdi. Tale elə gətirir ki, o, Gəncəyə gəlir və şairin ilk şeirlərindən biri olan, tərcümeyi-hal xarakteri daşıyan, 1908-ci il sentyabrın 9-da yazılmış "Gəldim Gəncəyə" şeirini qələmə alır. O, 1906-cı ildə Şah Abbas məscidi nəzdindəki Yelizavetpol (Gəncə) Müsəlman-Ruhani Seminariyasına təhsil alır. Seminariyada əla qiymətlərlə oxuduğuna görə "Xeyriyyə" cəmiyyəti tərəfindən ona hər ay yeddi dinar qızıl pul məbləğində təqaüd verilir. Orada ona Abdulla Sur, Hüseyn Cavid, İdris Axundzadə kimi tanınmış ziyalılar dərs deyirlər. Hələ seminariyada oxuyarkən ilk şeirlərilə bəzi müəllimlərinin diqqətini cəlb etmişdi.

Şairin tərcümeyi-halında qeyd olunur ki, o, poeziya ilə ilk dəfə Gəncədə təhsil illərində maraqlanmış, 1910-cu ildən başlayaraq lirik şeirlər və tənqidi məqalələrlə müxtəlif qəzet və jurnallarda çıxış etmişdir. Bu ərəfədə onun qələmə aldığı nümunələr, əsasən, ərəb-fars sözləri ilə zəngin qəzəl və qitələrdən ibarətdir. Əruz vəznindən şair yalnız yaradıcılığının ilk dövrlərində istifadə etmişdir. "Utan", "Müəllim" şeirləri onun ilk qələm təcrübələrindəndir. Ə.Cavadın arxivində "Fələk dil kabab" adlı 34 səhifəlik bir əlyazması saxlanılır. Bu şeirlər klassik rübai, qəzəl formalarında yazılmışdır. Ədəbiyyata bu səpkili şeirlərlə gələn Ə.Cavadın bir neçə ildən sonra şeir dili sadələşmişdir. 1913-cü ildə qələmə aldığı "Dilimiz" şeiri buna misaldır. Şair həmin şeirdə dilin saflığının qorunması ilə bağlı məsələlərə toxunmuş, ona özünün aydın münasibətini bildirmişdi. Dili yad ünsürlərlə, yabancı sözlərlə süni surətdə dolduranlara qarşı çıxmışdır.



Əhməd Cavadın "Qoşma" adlı ilk şeirlər kitabı 1916-cı ildə Bakıda, "Açıq söz" mətbəəsində nəşr olunmuşdur. Kitabın çapı zamanı şair Batumda idi. Burada toplanan şeirlər müəllifin ayrı-ayrı qəzet və jurnallarda dərc edilmiş əsərləridir.

Ədəbiyyata romantik şair kimi gələn Əhməd cavad Birinci Cahan müharibəsində iştirakı ilə bağlı olaraq onda realizmə, realist təsvirlərə meyil güclənmişdir. Realizm onun yaradıcılığında aparıcı mövqeyə çevrilmiş, sonrakı illərdə əsasən öz əsərlərini realist üslubda qələmə almışdır. Əhməd Cavad müharibədə dövründə yazdığı məqalələrini Bakı mətbuatında çap etdirmişdir. Cavadın çıxış və məqalələri, əsasən, "İqbal", "Yeni iqbal", "Şəlalə", "Açıq söz", "Azərbaycan", "Maarif və mədəniyyət", "Arı", "Maarif işçisi" kimi mətbuat orqanları ilə bağlı olub. Həmin dövrdə onun yaradıcılığında bayatı və publisistika ilə yanaşı, xəbərlər, reportajlar, oçerklər, felyetonlar, sənədli hekayələr və s. nəsr nümunələri yaratmaq meyli güclənmişdir. O, tarixi esselər, etnoqrafik etüdlər, məlumat xarakterli məqalələr, xatirələr, memuar əsərlər də qələmə alırdı.

### ÇIRPINIRDIN, QARA DƏNİZ, BAXIB TÜRKÜN BAYRAĞINA!

Əhməd Cavad savaş illərində əməli fəaliyyətlə, xeyriyyəçiliklə, zərərçəkənlərə yardım işi ilə məşğul olmaqla, bu mövzuda çeşidli, silsilə məqalələr yazmaqla yanaşı, şeir yaradıcılığını da davam etdirirdi. Bu cür şeirlərin çoxu savaş faciələri, xalqın həyatı mövzularında idi. Əhməd Cavadın qələmindən çıxan məqalələrdə dövrün bir çox aktual məsələləri öz əksini tapıb.

Əhməd Cavadın Türkiyə səfəri və səfərindən aldığı təəssüratın poetik ifadəsi olan çoxlu şeirlər yazmışdır. Türk xalqına məhəbbət hissini tərənnüm edən bu şeirlərdən biri 1914-cü ilin noyabrında Gəncədə qələmə alınmışdır. Türkiyədə böyük şöhrət qazanmış və Üzeyir Hacıbəyovun 1918-ci ildə Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra musiqisini bəstələdiyi "Çırpınırdın, Qara dəniz" şeiri Türkiyədə ən çox "Yol ver türkün bayrağına" adıyla məşhurdur. Şeirin Türkiyədə sevilmə səbəblərindən biri şairin türkçülüyü, türk dünyasına rəğbəti, sevgisi ilə bağlı idi.

**Çırpınırdın, Qara dəniz,**
**Baxıb Türkün bayrağına!**
**"Ah! " deyərdin, heç**
**ölməzdim,**
**Düşə bilsəm ayağına!**

Əhməd Cavadın həyatının və yaradıcılığının ən parlaq və məhsuldar dövrü AXC-nin yaranması, inkişafı illərinə təsadüf edir. Həmin dövrdə şair əsasən Gəncədə və Bakıda çalışmış, şeir və publisistik yaradıcılığını davam və inkişaf etdirmişdir. O, pedaqoji fəaliyyətinin inkişafına xüsusi fikir vermiş, əsasən müəllimlik etmiş və siyasi fəaliyyətdə bulunmuşdur.

Əhməd Cavadın bayraq mövzusuna həsr olunmuş bir sıra şeirləri vardır. O, öz şeirlərində dəfələrlə "Bir dəfə yüksələn bayraq, bir daha enməz" misrasını müxtəlif məqamlarda işlətmişdir. "Azərbaycan bayrağına", "Qardaş", "Yarandın", "Al bayrağa" və s. şeirləri buna misaldır. Şairin "Al bayrağa" adlı şeirində 1919-cu ilin yayında Azərbaycandakı millət və din qardaşlarının köməyinə qoşmuş Türkiyənin bayrağından bəhs açılır.

Əhməd Cavad yazılarına və siyasi görüşlərinə görə repressiyaya məruz qaldığı dövrə qədər artıq 3 dəfə həbs olunmuşdu. Şair ilk dəfə 1923-cü ildə həbs olunub, bir neçə ay həbsdə saxlanılıb.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Əhməd Cavad təyinatla Qusara müəllim göndərilir. O, ailəsilə birlikdə Qusarın Xuluq kəndinə köçərək burada müəllimliyə başlayır. 1920-ci ilin sentyabrından 1922-ci ilin oktyabrına kimi Əhməd Cavad Xuluq kənd məktəbində rus və türk dillərindən dərs verir. Tezliklə həmin məktəbin direktoru vəzifəsi ona tapşırılır. Öz vəzifəsinin öhdəsindən yüksək səviyyədə gəldiyi barədə Quba Qəza Xalq Maarifi Şöbəsindən verilmiş xasiyyətnamədə məlumat var. O, müəyyən fasilələrlə Quba Xalq Maarif Şöbəsinin müdiri işləyir, həmçinin Azərbaycan Maarif komissarlığının təşkil etdiyi qısa pedaqoji kurslarda mühazirəçi, yoxlama komissiyasının üzvü və başqa vəzifələrdə çalışır. Şair geniş maarifçilik fəaliyyəti göstərməklə yanaşı, eyni zamanda pedaqoq kimi fəaliyyətini davam etdirir.

### 1937-Cİ İL VƏ DÖYÜLƏN QAPI

1937-ci ilin mart ayında Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin tərcüməsinə görə ilk mükafata layiq görülməsinə baxmayaraq, həmin ilin 4 iyununda şair müəllimi H.Cavid, tələbəsi M.Müşfiq və həmyerlisi V.Xuluflu ilə eyni vaxtda həbs edilib. 1937-ci ilin 5 iyununda başlanan istintaq işi həmin ilin 25 sentyabrında qurtardı. 1937-ci il iyunun 3-də şairin mənzilinə girib axtarış aparırlar. Əhməd Cavadın qalın bir cilddən ibarət olan şəxsi işində evini axtarış zamanı müsadirə olunan əşyalar qeyd olunmuşdur.

Lakin rəsmi sənədlərdən məlum olur ki, Əhməd Cavad 1937-ci il iyun ayının 4-də həbs edilib, heç yerə sürgün edilmədən həmin ilin oktyabr ayının 12-dən 13-nə keçən gecə Bakıda vəhşicəsinə güllələnib. Nə yazıq ki, bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkar repressiya qurbanına çevrilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dil xalqın milli varlığını müəyyən edən sərvətdir

**Dil millətin varlığının əsas şərtlərindən, göstəricilərindən biridir. Bu, danılmaz faktordur. Azərbaycan xalqının varlığını yaşadan Azərbaycan dili neçə yüz illərdir ki, onun milli, mənəvi varlığını, mövcudluğunu qoruyub saxlayır. Ona görə də ana dili hər bir xalqın qürur mənbəyidir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir. Məhz buna görə də, xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, birinci növbədə onun Ana dilində öz əksini tapır. Dilini itirən xalq məhvə məhkumdur.**




Ümummilli lider Heydər Əliyev deyirdi ki, xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklər-



*MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri*

dən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. 70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirirdi və doğma dilimizin nüfuzunu qaldırmaq, ona işləklik qazandırmaq, onun dövlət dili kimi yüksək bir statusa sahib olmasını təmin etmək istiqamətində hakimiyyətə gəldiyi ilk günlərdən məqsədyönlü şəkildə fədakarlıqla çalışmağa başladı. Belə ki, ilk dəfə 1970-ci ildə Heydər Əliyevin o zamankı Azərbaycan Dövlət Universitetinin yaranmasının 50 illiyi münasibətilə keçirilmiş geniş partiya konfransında doğma ana dilində məruzə etməsi insanların böyük heyrətinə səbəb oldu. Çünki əvvəlki respublika rəhbərləri adətən rus dilində məruzə etsələr də Heydər Əliyev yalnız doğma ana dilində çıxış etməyə üstünlük verirdi. Hətta ulu öndər bu hadisəni belə qiymətləndirirdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilində, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir" .

Bu gun Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dili səviyyəsinə qalxması, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Bu siyasətin əsası isə ən çətin bir vaxtda-"vahid dil" siyasətinin daha geniş şəkildə təbliğ edildiyi, milli dillərin sıxışdırıldığı bir vaxtda qoyuldu. Halbuki belə çətin bir vaxtda ana dili məsələsi ilə məşğul olmaq olduqca qorxulu idi. Ona görə qorxulu idi ki, dil məsələsini qabardanlar, bu barədə fikir söyləyənlər Sibirə sürgün edilirdi. Bu cür təzyiq və təqiblərə baxmayaraq, Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə ifadə edə bildi. Hətta ulu öndərin bu cəsarətli addımı nəticəsində 1978-ci il konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi qəbul edildi.

1978-ci il aprelin ikisində IX çağırış Azərbaycan SSR ALİ Sovetinin Azərbaycan Sovet Sosialist respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr edilmiş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyaya vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dili Azərbaycan dilidir".

1978-ci ildə qəbul edilmiş Konstitusiya haqqında danışarkən ulu öndər o günləri belə xatırlayırdı: "Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, heç kəs sizə mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz...Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində böyük hadisə oldu".

Heydər Əliyev bilirdi ki, dil də, tarix də, mədəniyyət də millətsiz mövcud ola bilməz və hər hansı bir milləti yer üzündən izsiz olaraq silmək üçün onun dilini, mədəniyyətini, tarixini əlindən almaq kifayətdir.

Müstəqillik illərində Heydər Əliyevin qayğısı nəticəsində ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Bu gün dilimizin özünəməxsus kamil qrammatik quruluşu, zəngin fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" böyük öndər Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanında deyilir: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunlarıı əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və ahəngdar olmasına təkan verir".

2003-cü il yanvarın 2-də isə ulu öndərin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Öz doğma ana dilini sevən lider deyirdi: "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Ulu öndər Heydər Əliyev dövlət dilimiz olan ana dilimizə böyük üstünlük verərək, həm də tövsiyə edirdi ki, hər bir azərbaycanlı başqa dilləri də mükəmməl öyrənsin, onlardan yeri gəldikcə istifadə etsin. Lakin heç kəs öz doğma Azərbaycan dilinə diqqət, hörmət və məhəbbəti azaltmamalıdır. "Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, C. Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tarixi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək, onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları olmayacaqdır".

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev dilimizin qorunması və inkişafına böyük həssaslıqla yanaşır. Azərbaycan dilinin qorunmasına, dilimizə daim qayğı göstərilməsinə və onun yad təsirlərdən qorunmasına önəm verən dövlətimizin başçısı qeyd edib: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir".

Latın qrafikasında kütləvi nəşrlərin hazırlanması bunun parlaq göstəricisidir. Dövlət başçısı İlham Əliyev doğma ana dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə baş tutdu. Ölkə rəhbərinin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı eyni zamanda Əlifba ilə bağlı problemləri tamamilə həll etmiş oldu. Beləliklə, görülən işlərin nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu.

Beləliklə, günü-gündən qloballaşan dünyamızda Azərbaycan dilinin qorunub saxlanması və inkişaf etdirilməsi bu günümüzün ən zəruri məsələlərindən, ən vacib reallıqlarındandır. Və ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin - Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktorlardan biri kimi çıxış etməsini şərtləndirib. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.




## "Prezidentin dediyi kimi "Qarabağ Azərbaycandır" məfkurəsi aparıcı ideya olacaq"

"Dünya Azərbaycanlılarının 2001-ci ilin noyabrında Bakıda keçirilmiş ilk qurultayı Ümummilli Lider, Ulu Öndər Heydər Əliyevin həmin ilin mayında imzalanmış Sərəncamına əsasən keçirilmişdir. Qurultay dünyada yaşayan azərbaycanlıların Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirmək və daha da möhkəmləndirmək məqsədi ilə keçirilmişdir". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, Dünya Azərbaycanlılarının həmrəylik münasibətlərinin müasir dövrün çağırışlarına nəzərən qurulması və inkişaf etdirilməsində bu və sonrakı illərdə Prezident İlham Əliyevin Sərəncamı əsasında keçirilmiş digər 3 qurultayın da müstəsna əhəmiyyət və rolu olmuşdur: "Bildiyimiz kimi, 2022-ci il Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Şuşa ili elan edilmişdir. Şuşa Azərbaycanın milli mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də tariximizin ayrı-ayrı dönəmlərində milli müqavimət, əzəmət və əzmkarlıq, həmrəylik rəmzimiz də olmuşdur. Düşmən üzərində qələbəmizlə nəticələnmiş Qarabağ mücadiləmizin son və həlledici döyüşləri hər bir azərbaycanlı üçün müqəddəs dərgaha çevrilmiş bu şəhər uğrunda getmişdir. Dövlətimizin təhlükəsizliyinin qarantlarından olacaq və iki türk dövləti arasında münasibətlərin mahiyyət etibarı ilə yeni mərhələyə keçməsinin göstəricisi sayılacaq məşhur Şuşa bəyannaməsi də keçən il məhz bu şəhərdə Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanmışdır. Ermənistanın millətçi kəsiminin məhz bu şəhərə olan "xüsusi sevgisi" də nəzərə alınarsa, qurultayın Şuşada keçirilməsi Ermənistanda Mirzə Cəlilin məşhur ifadəsi ilə desək, hələ də "bəlkə də qaytardılar" sevdası ilə yaşayan millətçi və revanşist qüvvələrə bu qərar bir çağırış, mesaj kimi verilir dövlətimiz və onun başçısı tərəfindən. Bütün bu və digər amillər nəzərə alınmaqla qətiyyətlə deyə bilərik ki, Dünya Azərbaycanlıların Şuşada keçiriləcək növbəti qurultayı bizlərin azərbaycançılığın məfkurə dəyərləri ətrafında daha da sıx birləşməsinə öz töhfəsini verəcək, bu mübarizəmizdə möhtərəm Prezidentin dediyi kimi, "Qarabağ Azərbaycandır" məfkurəsi aparıcı ideya olacaq".

***Gülyana***

SİYASİ RAKURS



# Dəfn edilən "Minsk qrupu" və Ermənistanın siyasi nekroloqu

*Proseslər öz ardıcıllığı ilə nələri proqnozlaşdırır?*

**ATƏT-in Minsk qrupunun tarixin arxivinə yollanması prosesi demək olar ki, başa çatdı. Uzun illər, lap dəqiq desək, 28 il boyunca Qarabağ münaqişəsinin guya (!) sülh yolu ilə həlli istiqamətində Azərbaycanla Ermənistan, eləcə də aradabir Qarabağ arasında yol ölçən üçlük formatın turist həmsədrləri nəticə etibarı ilə üzərlərinə düşən missiyanın öhdəsindən gələ bilmədilər və Bakı iki il əvvəl, sentyabrın 27-də Ermənistanın bütün cəbhə boyunca başlatdığı geniş miqyaslı hücumlarına qarşı əkshəmlələr endirməklə 44 gün ərzində bir nömrəli problemini həll etdi. Məhz bundan sonra, yəni 2020-ci ilin 10 noyabr tarixində üçtərəfli bəyanatın imzalanmasının ardınca Ermənistan dəfələrlə Minsk qrupu vasitəsilə hələ də çıxa bilmədiyi xam xəyallarına qapıldı, amma bunun da nəticəsi olmadı. Artıq MQ lazımsız bir quruma çevrilmişdi.**

Və bu gün Azərbaycan üçün nə "Minsk qrupu", nə də "həmsədrlər" ifadələri mövcud deyil. Üstəlik, vaxtilə həmsədrlik edən ölkələr də artıq bu reallığı dərk edirlər və əbəs deyil ki, Rusiya XİN rəhbəri məsələ ilə bağlı rəhbərlik etdiyi qurumun nümayəndəsi olduğu bəyan edib, eləcə də Fransanın və ABŞ-ın nümayəndələri Ermənistana tam



fərqli statuslarda səfər ediblər.

Beləliklə, siyasi gündəmdə "Dağlıq Qarabağ münaqişəsi" olmadığı kimi, ATƏT-in MQ həmsədrləri də yoxdur. De-fakto onlar özlərini buraxıblar - Yəni nə ABŞ nümayəndəsi, nə Rusiya təmsilçisi artıq özlərini "həmsədr" kimi təqdim etmirlər. Fransa da öz nümayəndəsinin səfəri ilə bağlı Azərbaycan tərəfinə təqdim etdiyi müraciətdə "həmsədr" ifadəsini işlətməyib.

Bu arada Rusiyanın XİN-nin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarovanın keçmiş həmsədrin, mövcud xüsusi nümayəndənin İrəvan və Bakı ilə münbit məsləhətləşmələr aparması ilə bağlı fikri də göstərir ki, artıq həmsədr amili mövcud deyil. Eyni zamanda, həmin bəyanat onu da sübut edir ki, əsas müzakirə Prezident İlham Əliyevin təklif etdiyi gündəlik əsasında aparılır və bu reallıq İrəvan tərəfindən də dərk edilməyə başlanılıb. Beləliklə, Ermənistanın baş naziri Nikol Paşinyan faktiki olaraq, Azərbaycanla danışıqları Prezident İlham Əliyevin irəli sürdüyü 5 prinsipi qəbul edib və zatən onun başqa çıxış yolu da yox idi!



Eyni zamanda, bu prinsiplərin bilavasitə beynəlxalq hüquqa əsaslanır və İrəvan necə deyərlər, nala-mıxa döyəcləyərsə bu yalnız onun ziyanına və köklü zərərinə səbəb ola bilər.

O da əbəs deyil ki, Ermənistanda mövcud olan revanşist qüvvələr nə qədər cəhd etsələr də



xalqı özlərinə tərəf cəlb edə bilmirlər. Misal üçün, Vətən partiyasının lideri Artur Vanetsyanın Ermənistanda başladığı etirazların real sosial bazası yoxdur. Həmçinin, bəlli olub ki, Vanetsyan bu kimi dırnaqarası aksiyadan əvvəl Moskvada 5-ci dərəcəli "məmurlarla" görüşüb və təlimat alıb.

Onların əsas məqsədləri isə ictimai rəyin baxışlarını nəzərdən keçirmək, aksiyalara reaksiyalarını yoxlamaqdan ibarətdir. Amma o da faktıdr ki, artıq revanşistlərin də heç bir vasitələri qalmayıb və bu kimi aksiyalar get-gedə ölgünləşəcək və sönəcək.

Çünki erməni cəmiyyəti Vanetyanın arxasında dayanmış keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarqsyan və ümumilikdə korrupsiya burulğanında batan "Qarabağ ermənilərı klanından" bezib və onların arxasınca getmək istəmir. Artıq bu bir faktdır. Və əgər bu gün ATƏT-in Minsk qrupu dəfn edilibsə, artıq Ermənistandakı işğalçılıq siyasətinin də ölümü, son nəfəsləri verilir, eləcə də, siyasi nekroloqu yazılır və zaman artıq onların xeyirlərinə əsla işləmir!

**Rövşən RƏSULOV**

# "Economist" yazır ki, guya bu alınmayacaq..?



**...ABŞ prezidenti Cozef Bayden Rusiya prezidenti Vladimir Putinlə Venesuela prezidenti Nikolas Maduro arasıa girib onların münasibətləri korlamağı planlaşdırır. SİA-nın məlumatına görə, bu barədə "RİA Novosti" Britaniyanın "Economist" jurnalında dərc olunan məqaləyə istinadən xəbər verir.**

Beləliklə, "Economist"də yer alan yazı müəllifinin sözlərinə görə, ABŞ aprelin 22-dən qüvvəyə minən Rusiya neftinə tətbiq olunan embarqodan itkiləri Venesueladan yanacaq tədarükü hesabına ödəmək niyyətindədir. Bunun üçün Birləşmiş Ştatlar Venesuela neftinin idxalına hazırkı total qadağadan imtina etməli olacaq. Bu addımın arxasında isə siyasi məqsədlərin ola biləcəyi şübhə doğurmur.

"Əgər Cozef Bayden Venesuela ilə münasibətlərdə detente, yəni beynəlxalq gərginliyi yumşaltmaq nail olmaq niyyətindədirsə, bu, təkcə iqtisadi səbəblərə görə baş verməyəcək. O, çox güman ki, Moskvanın ən yaxın müttəfiqlərindən biri hesab etdiyi Venesuela ilə Rusiya arasında gərginlik yaratmaq üçün Ukraynadakı hərbi əməliyyatdan istifadə etməyə ümid edir.

Məqalə müəllifinə görə,..amma bu ideyanı həyata keçirmək guya elə də asan olmayacaq. Niyə? Çünki məqalə müəllifi belə hesab edir ki, Maduro Qərbə kömək etməkdən imtina edəcək.

"...Və əgər sövdələşmə aparılarsa belə, bu, Baydenin şərtləri ilə olmayacaq" deyə yazı müəllifi bildirib.

**Ağasəf Babayev**

# Azərbaycanın din, dövlət və cəmiyyət münasibətləri modeli dünyada müsbət nümunə kimi

> "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik"- Heydər Əliyev

Tarixdən məlum olduğu kimi ta qədimlərdən indiyədək Azərbaycanda dini və etnik tolerantlıq hökm sürür. Lakin, Azərbaycanda dini azadlıqların maksimum təmin edilməsi, dövlət tərəfindən dini icmalara qayğı göstərilməsi müsbət məqamlarla yanaşı mənfi tendensiyalara da rəvac verir. Yaradılmış şəraitdən sui-istifadə nəticəsində ölkədə təhlükəli təriqətlərin də sərbəst fəaliyyətinə imkan yaranıb ki, bu da cəmiyyətin və dövlətin mənafeləri kontekstində arzuolunan deyil. Əlbəttə, əsas problem getdikcə dinə meylin artmasında yox, dindən siyasi və ideoloji məqsədlər naminə istifadə cəhdlərindədir. Bəs dini azadlıqlar, tolerant mühitin təmin edilməsi vətəndaş cəmiyyəti üçün hansı perspektivlər vəd edir? Bu suala aydınlıq gətirmək üçün əvvəlcə dinin bəşər tarixində roluna və səbəb olduğu proseslərə dair qısa tarixi arayış vermək lazım gələcək.

Dinlərin meydana gəlməsi bəşər övladının öz yaşam kriteriyalarının və canlı aləmlə qarşılıqlı münasibətləri zəminində əxlaqi kodekslərin bərqərar olunması zərurəti ilə şərtlənib. İlkin dövrlərdə dinlər cəmiyyətin həyatını nizama salıb, qayda-qanunları təsbit edib, əxlaqi kriteriyaların bərqərar olunmasını təmin edib.

Lakin etiraf etməliyik ki, sonrakı dövrlərdə dinin kontekstdən çıxarılması nəticəsində onun onun elmi-texniki inkişafa qarşı çıxması, elmi, təhsili, mədəniyyəti və incəsənəti yalnız dini ehkamlar çərçivəsində görmə cəhdləri, orta əsrlərdə Avropada, Yaxın və Orta Şərqdə sivilizasiyanın inkişafına mane olub.

Müasir dünyaya nəzər yetirsək, dinlərlə bağlı mənfi məqamların təkcə tarixdə qalmadığını görürük. Təəssüf ki, XXI əsrdə də inkişaf etmiş dünya din və məzhəb qarşıdurmalarının şahididir. Yaxın və Orta Şərqdə dinin siyasiləşməsi prosesləri, konfessional təəssübkeşlik, dini qarşıdurma və terror aktları, müxtəli din və məzhəb mənsublarının birgə yaşadığı ölkələrdə vətəndaş müharibələri davamlı xarakter alıb.

Fələstində yarım əsrdən çoxdur ki, kiçik fasilələrlə davam edən yəhudi-ərəb müharibəsinin hansı dəhşətli nəticələrə gətirib çıxardığı ortadadır. Əfqanıstanda, Pakistanda, Misirdə və İraqda təriqətlərarası qırğınları və terror aktlarını, Suriyada, Türkiyədə dinçilərin dünyəvi dövlətə qarşı apardıqları mübarizə göz qabağındadır.

Bəzi cəmiyyətlərdə (Yaponiya, Şimali Amerika, Avropa, Rusiya, Çin və s.) dinin mahiyyətinin düzgün dərk edilməsi və onun cəmiyyətin həyatında yerinin dəqiq müəyyən edilməsi həmin cəmiyyətlərdə ümumbəşəri dəyərləri, insan haqlarını, texniki və elmi inkişafı təmin edə bilib. Bəzilərində (Əfqanısan, İraq, Misir, Liviya, Pakistan və s). isə əksinə olub.

Beləliklə, dünyanın hazırki reallıqlarından yanaşsaq, dinin mahiyyəti kimi rolu da fərqli istiqamətə yönəldilib. Bəzi xarici dairələr dini mənsubiyyət cəhətdən qarşıq əhalisi olan ölkələrdə radikal dini təriqətlərin əli ilə vətəndaş müharibəsi törədirlər.

Azərbaycanda da hələ ötən əsrin 90-cı illərindən başlayaraq dini və etnik qrupları qıcıqlandırmaqla ölkədə dini qarşıdurma yaratmağa çoxsaylı cəhdlər edilib, amma bu məsələlər dövlət və cəmiyyətin birliyi fonunda ümumilli lider Heydər Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində yüksək ustalıqla yoluna qoyulub. Ara sıra belə cəhdlər edilir, lakin ölkə hakimiyyətinin siyasi iradəsi və cəmiyyətin qətiyyətli mövqeyi buna imkan vermir.



Tarixə baxsaq, dünyada olduğu kimi, Azərbaycanda da dini ideologiya heç də həmişə tərəqqipərvər və sülhsevər olmayıb. Keçmiş əsrlərdə bu torpaqlarda müxtəlif dinlərin və fəlsəfi cərəyanların tərəfdarları arasında amansız müharibələr baş verib. Nəticədə, milyonlarla günahsız insan məhv edilib. Lakin Azərbaycan xalqı tarixin heç bir dövründə öz dinini əldə bayraq edib heç bir xalqa, dövlətə, dinə qarşı təcavüz etməyib, sülh şəraitində yaşamağa üstünlük verib.

Ötən əsrdə dini cəmiyyət və dövlət formasından dünyəvi cəmiyyət və dövlət formasına keçidin timsalında biz hər iki formasiyanın müqayisəsi imkanını qazanırıq. XX əsrin əvvəllərinədək Azərbaycan xalqı mövhumat içində yaşayır və elmi, texnoloji, mədəni inkişaf cəhətdən sivil dünyadan xeyli geri qalırdı. Lakin xalqımızın fədakar oğulları- Həsən bəy Zərdabi, Nərimanov, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Mirə Fətəli Axundov kimi böyük mütəfəkkirlər, Avropada və Rusiyada təhsil alan ziyalılar cəmiyyətin və ölkənin inkişafını elm və təhsildə gördülər və bunu təbliğ edirdilər. Məhz onların böyük və gərgin əməyi nəticəsində xalqı xurafatdan uzaqlaşdırmaq, təhsilə və mədəniyyətə cəlb etmək işi başladı.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə, bu iş kütləvi xarakter aldı. Qısa bir zamanda xalqımız böyük inkişaf yol keçdi. XX əsrdə Azərbaycan xalqı dünya elminə, mədəniyyətinə böyük dahilər, alimlər, sənətkarlar verdi.

Sovet İttifaqının dağılması və Azərbaycanın fəaliyyətini müstəqil dövlət kimi davam etdirməsindən sonra, respublikada azad vətəndaş cəmiyyətinin qurulması məqsədilə dini azadlıqlar dövlət tərəfindən təmin edildi.

Lakin dini maariflənmənin zəif olması səbəbindən dinin əsil mahiyyətindən kənara çıxan təriqətlər bir sıra gənclər üçün daha cəlbedici görünür. Belə təriqətlərin əsas məqsədi isə heç də Tanrı və Yaradılışın həqiqi mahiyyəti haqda bilik yaymaq deyil, yalnızca məkrli qlobal mərkəzlərin siyasətinə uyğunlaşmış təhlükəli təlimlərini cəmiyyətin mümkün qədər çox hissəsinə yaymaqdan və kütləni öz nəzarətlərində saxlamaqdan ibarətdir.

Belə dini qüvvələrin arxasında xarici dövlətlərin kəşfiyyat orqanlarının dayandığı isə heç kimə sirr deyil. Xarici siyasi-ideoloji mərkəzlər səhv yolda olan dini qüvvələrin vasitəsilə cəmiyyətdə parçalanma və qarşıdurmalar yaratmağa cəhd edirlər. Cəmiyyətin dindar hissəsinin təriqətlərə bölünməsinin acı təcrübəsi- Pakistan hadisələri hələ də unudulmayıb. Bu ölkədə bir neçə təriqətə bölünən cəmiyyət vətəndaş müharibəsi səviyyəsinə gəlib çıxdı və qardaş qırğını baş verdi. Oxşar hadisələr İraqda da yaşanır- sünnilər şiələrlə, kürdlər, ərəblər və türkmanlar bir-biri ilə "qanlı-bıçaqdırlar".

Kritik situasiyalarda bəzi Qərb dövlətlərinin radikal dindarları müdafiə etməsi onların dünyaya elan etdikləri prinsiplərinə zidd getməkdən əlavə, həm də gizli məqsədlərinin nədən ibarət olduğunu görməyə imkan verir. Ərəb ölkələrində baş verənləri bir balaca analiz edəndə məsələ aydın olur.

Azərbaycanda isə bu sahədə vəziyyət sabitdir, dini və ya etnik qarşıdurma üçün heç bir əsas yoxdur. Xalqımız qədimdən gələn ənənəsini yaşatmaqla həm ölkədə ictimai-siyasi sabitlirin qorunmasında dövlətin siyasətinə dəstək verir, həm də ölkənin bütün vətəndaşlarının respublikanın xoşbəxt gələcəyinin qurulmasına öz töhfəsini verir.

Bütün dünyaya məlum olduğu kimi, Azərbaycanda dini tolerantlıq hökm sürür. Heç kim dininə və əqidəsinə görə ayrı-seçkiliyə, təzyiqlərə məruz qalmır. Dünyəvi dövlət olaraq müasir, demokratik bir cəmiyyətə malik Azərbaycanda dini azadlıqlar maksimum təmin edilib. Ölkəmiz özünün dövlət-din, cəmiyyət-din münasibətləri modeli ilə dünyanın ən yaxşıları sırasındadır.

Hazırda Azərbaycanda dini sabitlik kifayət qədər yüksək səviyyədədir. Dövlətimiz vətəndaşların vicdan azadlığının qorunması üçün üzərinə düşən bütün vəzifələri qətiyyətlə həyata keçirir. Bunun məntiqi nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri müasir qanunvericilik səviyyəsində tənzimlənir, dini etiqad azadlığı tam qorunur, tolerantlıq daha da möhkəmlənir.

Ümumilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyev uzaqgörən və müdrik fəaliyyəti nəticəsində müstəqil ölkənin vətəndaşlarına bütün bəşəri azadlıqların arasında, həm də dini etiqad azadlığını bəxş edib. Bu siyasətin layiqli davamçısı Prezident İlham Əliyev də hər zaman dini dəyərlərə böyük hörmət göstərib və Azərbaycanın dünyada nümunəvi tolerant ölkə imicini qazanmasında əsas roy oynayıb.

Beləliklə, bu gün respublikamızda hər bir vətəndaşın öz dini inancını qoruması, həmin dinin təbliğ edilməsi, dindarların rahat ibadətlə məşğul olma hüquqları Konstitusiya (18, 48-ci maddələr) ilə təsbit edilib və dövlət bu hüquqların təmin edilməsi üçün kifayət qədər optimal siyasət yürüdür. Azərbaycan cəmiyyəti dinin mənəvi dəyərlər sistemi olduğunu və onun siyasətə, dövlət işlərinə və sair bu kimi məsələlərə qarışdırılmamasının vacibliyini dərk edirlər. Bir sözlə Azərbaycanda dini fanatizmə cəmiyyətin münasibəti müsbət deyil.

Ulu öndər Heydər Əliyev Azərbaycanda dinə olan münasibəti qısaca belə ifadə etmişdi: "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik".

Azərbaycanda dövlət tərəfindən dini icmalara böyük diqqət və qayğı da göstərilir. Ölkədə dövlət tərəfindən yüzlərlə məscid, onlarla kilsə, sinaqoq və digər məbəd və ziyarətgahlar tikilib və ya yenidən qurulub. Prezident İlham Əliyevin tapşırığı ilə dövlət tərəfindən çox böyük vəsait ayrılaraq Təzəpir məscidinin dünyanın ən zəngin və ən möhtəşəm məscidlərindən birinə çevrilməsi dini dəyərlərə hörmətin hansı səviyyədə olduğunu göstərir.Ölkə prezidentinin sərəncamları ilə mütamadi olaraq dini icmalara dövlət tərəfindən yardımlar ayrılır.

Hazırda respublikamızda 2000-dən məbəd və ziyarətgah var. Azərbaycanda dini bayramlar ən yüksək səviyyədə keçirilir. Bundan başqa, Bakıda tez-tez dini tolerantlıq və sivilizasiyaların qovuşması mövzusunda beynəlxalq konfranslar təşkil olunur.

Ölkəmizin ali məktəblərindən biri olan Bakı İslam Universitetində və digər universitetlərin ilahiyyat fakültələrində xeyli gənc dini təhsil alır. Bundan başqa, onlarla gənc islam ölkələrinin aparıcı universitetlərində təhsillərini davam etdirirlər.

Əlbəttə, ölkədə dini və ya etnik tolerantlıq ab-havasının saxlanılmasının təmin olunması olduqca vacib məsələdir. Bu amil dövlətçiliyin qorunmasında və inkişafında önəmli rol oynayır. Lakin, dini azadlıq insanların zərərli təriqətləri müdafiə etməsinə səbəb olmamalıdır. Hansısa təriqətə bağlılıq, cəmiyyət və dövlət maraqlarından üstün tutulmamalıdır. Azərbaycançılıq ideyası hər şeydən əvvəldə gəlməlidir. Dünyada davam edən etnik və dini münaqişələrin fonunda qədim Odlar Yurdu bütün etnik və dini qrupların eyni hüquqlara malik olduğu, dinc yanaşı yaşadığı bir tolerantlıq adasıdır. Dünyaya bu sahədə əyani nümunə olan əlvan ada.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*




# Azərbaycan boksçusu Avropa çempionu oldu!

***Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa birinciliyində final döyüşlərinə start verilib. Azərbaycan Boks Federasiyasından SİA-ya verilən məlumata görə, çempionluq uğrunda mübarizədə rinqə ilk olaraq Azərbaycan millisinin üzvü Kənan Babayev çıxıb.***

Türkiyəli Telet Yağlı, gürcüstanlı Oruc Əhmədov və irlandiyalı Tedi Coysu məğlub edən ölkə çempionu final döyüşündə polşalı Nikolas Marsel Pavliklə qarşılaşıb. 48 çəki dərəcəsində baş tutan görüş təmsilçimizin inamlı qələbəsi ilə yekunlaşıb. Uğurlu seriyasını davam etdirən Babayev bu dueldən də qalib ayrılıb - 5:0 (29:28, 29:28, 29:28, 30:27, 29:28).

Bununla da Kənan qitə birinciliyinin qızıl medalına sahib olaraq Avropa çempionu tituluna yiyələnib. Beləliklə, Azərbaycan yığması 40 ölkədən 400-dən çox boksçunun qatıldığı Avropa birinciliyində çıxışını 1 qızıl və 1 bürünc medalla başa vurub. Babayevdən öncə Amin Məmmədzadə (51 kq) 3-cü yeri tutub.

***Banuçiçək Hüseynli***

# Azərbaycanda rus dilinə maraq niyə artır?

**EKSPERT ŞƏRH ETDİ**




"Ümumiyyətlə, konstitusiya konkret olaraq hər bir respublika vətəndaşından ölkə ərazisində Azərbaycan dilində danışmağı tələb edir. Təbii ki, Azərbaycan Respublikası tolerant bir ölkədir. Azərbaycan ərazisində yaşayan hər bir xalqın dilinə hörmətlə yanaşılır". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib. Onun sözlərinə görə, bu baxımdan dövlət tərəfindən onlara heç bir məhdudiyyət qoyulmayıb: "Amma müvafiq olaraq ictimai yerlərdə Azərbaycan dilində danışılması vacibdir. Hər hansı bir vətəndaş Azərbaycan dilini bildiyi halda, başqa bir dildə danışmağa üstünlük verirsə, o şəxsə qarşı münasibət birmənalı olmayacaq".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Qanun hər zaman dövlətçilik tərəfindədir. Amma həmin şəxsə qarşı birbaşa şiddət göstərilməsi də doğru deyil. Sadəcə o insandan nəzakətlə Azərbaycan dilində danışılması tələb edilə bilər. Həmin şəxs haqsız olsa belə, şiddətə məruz qaldıqdan sonra haqlı çıxır. Azərbaycan Respublikasında hər bir şəxs bərabərhüquqludur. İstər din, istərsə də dil baxımından hər kəs azaddır. Ona görə də insanlar da bir-birinə qarşı hörmətlə, anlayışla yanaşmalıdır".

***Ayşən Vəli***

# Bakıda üç avtomobil toqquşub

***Bakının Nəsimi rayonunda yol qəzası baş verib. SİA APA-ya istinadən xəbər verir ki, hadisə Asif Məhərrəmov küçəsində baş verib.***

"Toyota" markalı avtomobilin sürücüsü əks istiqamətə çıxaraq "VAZ-2106" markalı nəqliyyat vasitəsinə çırpılıb. Toqquşmanın təsirindən "Toyota" daha sonra "Daewoo" markalı maşınla toqquşub. Qəza nəticəsində "VAZ" markalı maşında olan sərnişin xəsarət alıb. Faktla bağlı Nəsimi Rayon Polis İdarəsində araşdırma aparılır.




# DİQQƏT:

## Azərbaycanda bitki yağlarında qıtlıq olacaq?

**İqtisadçi-ekspert danışdı**

**"2021-ci ilin yekununa əsasən Azərbaycanın idxal etdiyi bitki yağlarının miqdarı 126 min ton təşkil edib. Eyni zamanda ölkəmizdə 75 min ton bitki yağları istehsal olunub". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar Bayramov bildirib.**

Onun sözlərinə görə, idxalımız istehsaldan çox olsa da, Azərbaycanın ilin sonuna bitki yağına olan ehtiyatı 226 min ton olub: "Bu da ondan xəbər verir ki, Azərbaycan 2022-ci ilə bitki yağı üzrə ehtiyacla daxil olub. Təbii ki, bu gün quru və bitki yağlarının dünya bazarında qıtlığı müşahidə olunur. Xüsusən də bu qıtlıq Avropada daha çox müşahidə olunur. Çünki Avropa idxal baxımından Rusiyadan birbaşa asılıdır. Ancaq son illərdə ölkəmizdə istehsalın genişlənməsi müşahidə olunur. Son dövrlərdəki rəqəmlər onu göstərir ki, istehsal əvvəlki illərə nisbətən daha da artıb. Bu isə onu sübut edir ki, növbəti illərdə Azərbaycan bitki yağlarında olan idxalı kəskin azalda biləcək və daha çox yerli istehsal hesabına istehlakı ödəmək imkanına malik olacaq.

Bu kontekstdə əsas məqsəd ondan ibarətdir ki, növbəti illərdə istehlak bazarında tarazlığın qorunub-saxlanılması və əsas strateji məhsullarının, o cümlədən də bitki yağı üzrə istehlakda yerli istehsalın payının artırılmasına nail olunsun".

***Banuçiçək Hüseynli***



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**